RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 36 (8352) ÇƏRŞƏNBƏ AXŞAMI, 18 fevral 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyevin Paşinyana növbəti ustad dərsi

## Azərbaycan Prezidenti yüzillik erməni yalanını beynəlxalq miqyasda bir daha ifşa etdi, Ermənistan baş nazirini isə yenə də "öz dilindən yandırıb" gülüş hədəfinə çevirdi

**"Mən bura həqiqətləri deməyə gəlmişəm" - Münxen debatında İlham Əliyevin səsləndirdiyi bu fikir müzakirələrin həm əsas leytmotivini təşkil etdi, həm də nəticənin müəyyənləşməsində mühüm rol oynadı. Müzakirələrin gedişində erməni baş nazir nə qədər mətləbdən yayınıb, ənənəvi erməni üslubunda yalanlar söyləsə də, Azərbaycan Prezidenti öz həqiqətləri ilə onu ifşa etdi, hətta çaşdırdı və aciz duruma saldı. Nəticə isə ən böyük həqiqəti ortaya qoydu: artıq erməni saxtakarlığı keçmir və Azərbaycan Prezidentinin hücumçu diplomatiyası dünya erməniliyini darmadağın edir.**

### İlham Əliyev əzmi: Hyustondan Münxenədək...

İlham Əliyev erməni lobbisinin onilliklər boyu meydan suladığı, erməni rəhbərlərinin yalanlarını mütləq həqiqət kimi qəbul edən, məmləkətimiz barədə bədnam niyyətlərin gerçəkləşdiyi digər məkanlarda olduğu kimi, Münxen Konfransında da ardıcıl diplomatik qələbəsini əldə etdi.

Qeyd edək ki, beynəlxalq platformalarda indiyədək dəfələrlə Azərbaycan və Ermənistan rəhbərlərinin debatlarının təşkili təşəbbüsü olub. Lakin erməni rəhbərləri daim bu müzakirələrdən qaçıblar.

Əslində, onları qınamaq da mümkün deyil! Çünki qarşılarında diplomatiyanın möhtəşəm cahangirlərindən birinin - İlham Əliyevin olduğunu dərk edən kimsə yalnız yalan və saxtakarlığa güvənib debata çıxarmı?!.

Hələ 1994-cü ildə adi məmur ranqında Hyustonda dünyanın ən azman neft maqnatlarının qarşısında Azərbaycan xalqının maraqlarını əzmlə qoruyan və onları öz mənafelərini o qədər də təmin etməyən müqaviləni imzalamağa razı salan bir insanın 26 il ərzində daha hansı üst səviyyəyə yüksəldiyini müəyyənləşdirmək üçün qeyri-adi istedada lüzum varmı?!.

SOCAR-ın vitse-prezidenti İlham Əliyev XX əsrdə BP, AMOKO, SHELL rəhbərlərinin müqavimətini qırırdı...

Prezident İlham Əliyev XXI əsrdə tam müstəqil siyasət yürüdərək coğrafi xəritədə nöqtə boyda olmayan bir dövləti - Azərbaycanı fövqəlgüclərin və böyük dövlətlərin təsir-təzyiqlərindən inamla qoruyur, onları dəf edir...

Avropanın enerji təhlükəsizliyini təmin edən, dünyanın enerji xəritəsinin müəyyənləşməsində əsas aktorlardan olan, Azərbaycanı Qafqazın şəriksiz liderinə və qlobal logistika-nəqliyyat qovşağının mərkəzinə çevirən bir liderin qarşısına Münxendə çıxan macəraçının siyasi iflası da elə əvvəldən qaçılmaz idi.

### İlham Əliyevin böyük inqilabı, Paşinyanın "mikro" avantürası

Etiraf edək, Paşinyan mükəmməl erməni yalanı dəzgahının istehsalı kimi özünün "inqilabçı" obrazını beynəlxalq miqyasda az-çox tanıda bilib. Amma Azərbaycanın 1988-1993-cü illərdəki "çayxana inqilabçıları"nın siyasi əkizi olan baş nazirin siyasətdə və dövlət aparatında təsadüfi olduğunu elə onun öz əməlləri, əsasən isə İlham Əliyevin ifşaları təsdiq edir. Artıq Paşinyanın "islahatçı kürkü" yırtılıb...

İki il öncə kriminal rejimdən narazı xalqın üsyanından və həmin dövrdə ciddi lidersizlik böhranından sui-istifadə edərək hakimiyyəti qəsb edən Paşinyan sələflərinin yalnız cinayətkar və talançı idarəçilik üslubunu davam etdirmir, həm də onların Qarabağ probleminin həlli istiqamətindəki yanlış yanaşmasını, ən çox elə erməni xalqına ziyan vuran siyasətini yürüdür. Artıq Paşinyanın "inqilabının" əslində, Köçəryan-Sarkisyan iqtidarlarının yarıtmazlığının daha geniş miqyasda davamı olduğunu Ermənistandan Qərbədək bilməyən yoxdur...

İlham Əliyev Paşinyanın siyasətdə təsadüfi və uğursuz adam olduğunu, dövlət başçısı kimi yetkinləşmədiyini dörd ay öncə Aşqabadda MDB liderlərinin qarşısında sübut etmişdi, açıq deyək, onu rəzil duruma salmışdı. İlham Əliyevin Paşinyana ironiyasına bütün prezidentlər gülmüşdü, yalanlarının ifşasını isə məmnunluqla izləmişdilər...

*Ardı 2-ci səh.*

## Hacıqabul rayonunun Hacıqabul-Muğan avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Otuz iki min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Hacıqabul-Muğan avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşunun (investisiya xərclərinin) bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 4,9 milyon (dörd milyon doqquz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 fevral 2020-ci il*

## *Komissar Fil HOQAN:* "Aİ ilə Azərbaycan arasında imzalanacaq saziş münasibətləri yeni səviyyəyə yüksəldəcək"

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Brüsselə işçi səfəri çərçivəsində Avropa İttifaqının (Aİ) ticarət üzrə komissarı Fil Hoqan ilə görüşüb.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, konstruktiv və qarşılıqlı faydalı tərəfdaşlıq mühitində keçən görüşdə Azərbaycan ilə Aİ arasındakı əməkdaşlıq məsələləri, habelə ikitərəfli münasibətlərin hüquqi əsasını təşkil edəcək yeni sazişlə bağlı danışıqların gedişatı müzakirə edilib.

Nazir Elmar Məmmədyarovu səmimiyyətlə salamlayan F.Hoqan Aİ ilə Azərbaycan arasında əməkdaşlığa dair sazişin ikitərəfli münasibətlərin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsinə təkan verəcəyindən əminliyini ifadə edib.

Öz növbəsində nazir Elmar Məmmədyarov Azərbaycan və Avropa İttifaqı arasında yeni saziş layihəsi üzrə aparılan danışıqların cari vəziyyəti və müzakirəsi davam edən məsələlər barədə qarşı tərəfə məlumat verib.

Komissar F.Hoqan Azərbaycan Respublikası ilə saziş layihəsinin ticarət bloku üzrə danışıqlarının intensivləşdirilməsinin əhəmiyyətini qeyd edib və sənədin bu ilin iyun ayında keçiriləcək Avropa İttifaqı Şərq Tərəfdaşlığı ölkələrinin Zirvə toplantısına qədər yekunlaşdırılaraq tədbir zamanı paraflanmasını təklif edib.

Nazir Elmar Məmmədyarov Azərbaycan tərəfinin danışıqları konstruktiv, bərabərhüquqlu və hər iki tərəfin maraqlarına cavab verəcək şəkildə davam etdirilməsinin tərəfdarı olduğunu vurğulayıb.

Tərəflər, həmçinin "Cənub qaz dəhlizi"nin Avropanın enerji təhlükəsizliyinin təminatına verdiyi töhfəsini yüksək qiymətləndirərək "Cənub qaz dəhlizi"nin yekunlaşması və onun gələcəkdə digər layihələr vasitəsilə inkişafına dair məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## Azərbaycan hər nəfərə düşən büdcə xərclərinə görə regionda liderdir

### *Vüsal QASIMLI:* "Fiskal islahatlar respublikamızı bölgənin ən rəqabətqabiliyyətli və sosial rifah dövlətinə çevirib"

Nəticə əsaslı büdcə və ortamüddətli xərclər çərçivəsinin tətbiqi məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin Fərmanı ilə 2020-ci il pilot dövr kimi, büdcə xərclərinin funksional təsnifatının "Təhsil", "Kənd təsərrüfatı" və "Ətraf mühitin mühafizəsi" bölmələri isə pilot sektorlar kimi müəyyən edilib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı fiskal sahədə aparılan islahatlar mövzusunda sualları cavablandırıb.

*- Ortamüddətli xərclər çərçivəsi nədir və bunun əhəmiyyətini necə izah edərdiniz?*

- Prezident İlham Əliyev tərəfindən təsdiqlənən "Milli iqtisadiyyat perspektivi strateji yol xəritəsi"ndə göstərilirdi ki, ortamüddətli xərclər çərçivəsi güclü büdcə idarəçiliyi və onun nəticə əsaslı büdcə təşkilinə uyğunlaşdırılması, dövlət xərclərinin səmərəliliyinin təmin edilməsi və neft gəlirlərinin dəyişkənliyinin təsirinin azaldılması üçün əhəmiyyətlidir. Nəticə əsaslı büdcə aşağıdakı şərtlər daxilində reallaşdırılacaq: dövlətin maliyyə resurslarının proqramlar və strateji hədəflər üzrə icrasının təmin edilməsi, büdcə vəsaitlərindən istifadə üzərində nəzarət mexanizminin qurulması, büdcə layihəsinin büdcə təşkilatlarının fəaliyyətinin səmərəliliyini, nəticələrini və qənaətliliyini qiymətləndirməyə imkan verən göstəricilər sistemi əsasında tərtib edilməsi.

*Ardı 3-cü səh.*

## Etibarlı tərəfdaş, sabit neft təchizatçısı

### Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransında iştirakı Azərbaycanın yüksək nüfuzunun təsdiqidir

**56-cı Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün fevralın 14-də Almaniya Federativ Respublikasında səfərdə olan Prezident İlham Əliyev bu dəfə də həm ikitərəfli formatda vacib görüşlər keçirdi, həm də konfrans çərçivəsində "Enerji təhlükəsizliyi" mövzusunda "dəyirmi masa"da iştirak etdi.**

Ümumiyyətlə, hər il keçirilən Münxen Təhlükəsizlik Konfransı dünyada aktual məsələlərin həll edildiyi bir məkana çevrilib. İlk dəfə 1964-cü ildən keçirilən konfransda yalnız hərbi təhlükəsizlik məsələləri müzakirə edilirdisə, ildən-ilə bunun mahiyyəti dəyişib, yeni çalarlar əlavə edilib. Son dövrdə isə burada enerji təhlükəsizliyi və ekoloji tarazlığın qorunub saxlanılması məsələləri önə çəkilib. Həm də ənənəvi iştirakçılar və mövzular var. Azərbaycan Prezidenti bu konfransda müntəzəm və aktiv iştirak edir. Əlbəttə ki, cənab İlham Əliyevin bu mötəbər beynəlxalq tədbirlərdə daimi olaraq iştirakı dünya təhlükəsizliyi ilə bağlı vacib məsələlərdə Azərbaycanın mövqeyinin əhəmiyyətli hesab olunmasının göstəricisidir. Yəni bu konfransda iştirak, ilk növbədə, Azərbaycanın yüksək nüfuzunun təsdiqidir, ölkənin iqtisadi potensialının bu gün Avropanın iqtisadi potensialına üzvi surətdə birləşdirilməsi və Azərbaycanın Avropanın ayrılmaz tərkib hissəsi kimi qəbul edilməsi, ölkəmizin artan çəkisi deməkdir.

*Ardı 2-ci səh.*

**Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqları 26 ilə yaxındır etibarlı tərəfdaşlıq, ekoloji baxımdan zərərsiz əməliyyatlar sayəsində təhlükəsiz işlənir, ahəngdar şəkildə neft və qaz verir.**



## AÇG doqquzuncu platformasının yolunu gözləyir

### "Azəri Mərkəzi Şərqi" adlanan bu qurğudan ilk neft 2023-cü ildə alınacaq

AÇG-dən indiyədək əldə olunan hasilatın həcmi bu ilin yanvar ayında 500 milyon tona çatdı. AÇG, həmçinin Azərbaycana ümumilikdə 45 milyard kubmetrdən artıq səmt qazının təmənnasız təhvil verilməsini təmin edib.

1994-cü ilin sentyabr ayında AÇG üzrə müqavilə imzalanarkən tərəfdaşlar bu yataqların təxmini ehtiyatlarının 511 milyon ton olduğunu müəyyən etmişdilər. Lakin zaman bu yataqlar blokunun sərvətinin daha çox olduğunu göstərdi. Hazırda AÇG-nin ehtiyatlarının ən azı 1 milyard ton olduğu bildirilir. Gələcək illərdə, yəni daha yeni texnologiyalar tətbiq edildikcə, bəlkə həmin yataqlar blokundan bundan da çox karbohidrogen hasil etmək mümkün oldu.

2017-ci ilin sentyabr ayında AÇG-nin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş sazişin imzalanması da bu amilə əsaslanır. Yeni müqavilə 2049-cu ilin sonunadək davam edəcək və növbəti illər ərzində AÇG-nin ölkəmizə gətirdiyi iqtisadi mənfəətləri maksimuma çatdıracaq. Bu müqavilənin şərtləri Azərbaycanın 1994-cü ildən bəri artan maliyyə və texnoloji potensialını əks etdirməklə yanaşı, xarici tərəfdaşların ölkəmizin iqtisadiyyatına olan inamını da göstərir və artıq çoxdandır reallığa çevrilən möhkəm əməkdaşlığı yeni müstəviyə qaldıracaq. Yeri gəlmişkən qeyd edək ki, "Yeni əsrin müqaviləsi" adını alan bu sazişdə əvvəlki tərəfdaşların heç biri dəyişməmişdir. Bu da Azərbaycanda xarici sərmayələrlə bağlı imzalanan müqavilələrin bir cümləsinin belə dəyişdirilmədən tam qorunmasının və yaranan mükəmməl tərəfdaşlıq platformasının daha bir təsdiqidir.

"Yeni əsrin müqaviləsi" çərçivəsində yeni bir layihənin həyata keçirilməsi nəzərdə tutulur. Bu, AÇG müqavilə sahəsində daha bir platformanın tikintisindən ibarətdir. Beləliklə, keçən ilin aprel ayında AÇG-nin işlənməsinin növbəti mərhələsi olan "Azəri Mərkəzi Şərqi" layihəsinə sanksiya verildi. Bununla da 6 milyard dollar dəyərində olan işlənmə layihəsinin həyata keçirilməsinə başlandı.

*Ardı 3-cü səh.*

## "İlham Əliyev Paşinyanı küncə sıxışdırdı"

### Türkiyə KİV Azərbaycan Prezidentinin Ermənistanın baş naziri üzərində qələbəsini əsas manşet xəbəri kimi verdi



*Bax: səh. 4*

## Hikmət HACIYEV: "Dünya ictimaiyyəti bir daha Ermənistanın acizliyini, yalana əsaslanan tezislərinin darmadağın olduğunu gördü"



Bildiyiniz kimi, ötən gün Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr təşkil olundu. Əvvəllər Münxen Təhlükəsizlik Konfransının Təşkilat Komitəsi tərəfindən Azərbaycan dövlətinin rəhbərliyi ilə Ermənistan dövlətinin rəhbərliyi arasında Qarabağ münaqişəsinin müzakirəsi məsələsi irəli sürülsə də, Ermənistan tərəfi bu təklifdən yayınırdı. Bu dəfə isə razılıq verdilər. Nəticə etibarilə Prezident İlham Əliyev tərəfindən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin bütün aspektləri, yəni tarixi, siyasi, hüquqi və münaqişənin həlli prosesi prinsipial, qəti, əzmli və əsaslandırılmış bir formada Münxen Təhlükəsizlik Konfransı iştirakçılarının diqqətinə, həmçinin də beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıldı. Bunun fonunda dünya ictimaiyyəti bir daha Ermənistanın acizliyini və yalana əsaslanan tezislərinin darmadağın olduğunu, eləcə də ifşasını aydın şəkildə gördü.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Hikmət Hacıyev Prezident İlham Əliyevin "mən buraya gəlmişəm həqiqəti söyləməyə" fikrinə toxunaraq qeyd edib ki, sözün əsl mənasında, münaqişənin həlli istiqamətində əsl həqiqətlər beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıldı. Bunun fonunda Ermənistan baş nazirinin özünü müdafiə edəcək formada çıxışlarını və bu çıxışlarla özünü gülünc formaya salmasını, özü-özünü ifşa etməsini bir daha görmüş olduq.

"Prezident İlham Əliyev tərəfindən Dağlıq Qarabağın tarixi ilə bağlı geniş bir arayış verildi. Bu proses çərçivəsində ermənilərin Dağlıq Qarabağda maddi-mədəni irsinin olmaması, Azərbaycan xalqına qarşı törədilmiş qanlı etnik təmizləmə, Xocalı soyqırımı və digər münaqişənin həlli prosesi ilə bağlı olan məqamlar açıq şəkildə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıldı. Eyni zamanda münaqişənin həlli ilə əlaqədar beynəlxalq auditoriya tərəfindən hər iki tərəfə suallar ünvanlandı. Dövlətimizin başçısı tərəfindən münaqişənin həlli ilə bağlı Azərbaycanın baxışı, münaqişənin məhz BMT TŞ qətnamələri əsasında mərhələli şəkildə həlli bir daha qeyd olundu. Həmçinin Ermənistanın baş naziri ənənələrinə sadiq qalaraq yalanlar söyləməyə və münaqişənin əsl mahiyyətini təhrif etməyə çalışarkən, dövlətimizin başçısı o məqamda qeyd etdi ki, Ermənistanın sülh tərəfdarı və sülh iddiasında olması absurddur. Elə həmin gün Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində Azərbaycan əsgərinin öldürülməsi riyakarlığın, Ermənistanın yürütdüyü riyakar siyasətin növbəti bir nümunəsi idi. Həmçinin burada Ermənistanın baş naziri xalqların öz müqəddəratını təyinetmə prinsipini təhrif etməyə çalışırdı. Dövlətimizin başçısı bu prinsipin əsl mahiyyətini izah edərək qeyd etdi ki, erməni xalqı artıq bu hüququndan istifadə edərək Ermənistan adlı dövlətini yaradıb. Azərbaycan dövləti öz ərazisində bu hüququn bir daha istifadə edilməsinə imkan verməyəcək, buna lüzum da yoxdur. Ermənistan harada istəyirsə, orada bu hüququndan istifadə edə bilər".

Hikmət Hacıyev vurğulayıb ki, Münxen Təhlükəsizlik Konfransı beynəlxalq gündəlikdə duran qlobal təhlükəsizlik məsələlərinin müzakirə olunduğu vacib platformadır. Məhz dövlətimizin başçısı tərəfindən bu tezislər, yəni münaqişənin həllini təşkil edən tutarlı arqumentlər, təhlillər Münxen Təhlükəsizlik Konfransı kimi mühüm platformada beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıldı. Bunun fonunda isə biz bir daha Ermənistanın yalanlarının ifşasını görmüş olduq. Bu, hər bir Azərbaycan vətəndaşının qürur duyacağı bir məqam idi. Prezidentimiz tərəfindən mühüm platformada Azərbaycan dövlətinin maraqları ləyaqətlə qorunur".

Hikmət Hacıyev əlavə edib ki, Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Prezident İlham Əliyevin keçirdiyi hər bir görüş məzmunlu idi: "Burada mən xüsusilə Dünya Bankının İcraçı Direktoru ilə olan görüşü qeyd etmək istərdim. Dünya Bankı tərəfindən ölkəmizdə keçirilən iqtisadi islahatlar, iqtisadiyyatın şaxələndirilməsi, Azərbaycanda yoxsulluğun aradan qaldırılması istiqamətində ölkəmizin nailiyyətləri yüksək səviyyədə təqdir edildi. Digər dünya ölkələri üçün bir fakt kimi qeyd olundu. Həmçinin Beynəlxalq Böhran Qrupunun rəhbərliyi ilə olan görüşü də qeyd etməliyik. Bu görüşdə Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində apardığı qeyri-qanuni fəaliyyətlər də geniş şəkildə müzakirə olundu".

# İlham Əliyevin Paşinyana növbəti ustad dərsi

### Azərbaycan Prezidenti yüzillik erməni yalanını beynəlxalq miqyasda bir daha ifşa etdi, Ermənistan baş nazirini isə yenə də "öz dilindən yandırıb" gülüş hədəfinə çevirdi

*Əvvəli 1-ci səh.*

Şübhəsiz, Paşinyan İlham Əliyevlə növbəti müzakirəyə sanki bir döyüş kimi hazırlaşmışdı. Amma artıq 26 ildir ki, İlham Əliyevlə döyüşün hansında qaliblə məğlubların yeri dəyişib?!.

Təsadüfi deyil ki, Paşinyan çıxışına guya həyata keçirdiyi "inqilabları" yada salmaqla başladı, müzakirələrin gedişində isə bu mövzuya heç kimin toxunmamasına görə hətta auditoriyanı məzəmmət də etdi. Baş nazir bu yalanla yenə də imitasiyaya çalışırdı. Amma indi bu ucuz gedişlər alınmır. Paşinyanın "böyük inqilabçı" obrazı Qərbdə də sabun köpüyünə dönüb, onun "mikroinqilabları" nəinki maraq doğurmur, hətta ironiya hədəfinə çevrilir.

Çünki artıq MDB də, Avropa da, ABŞ da tarixin ən qüdrətli Azərbaycanının timsalında İlham Əliyevi ən böyük inqilabçı, bugünkü müflis, səfil, forpost Ermənistanın nümunəsində isə Paşinyanı böyük siyasi avantürst kimi tanıyır, qəbul edir!..

#### İlham Əliyevin həqiqətləri və sarkazmları

Paşinyanın çıxışının tamamilə yalan və saxtakarlıq üzərində qurulmasını desək, yəqin ki, Amerika kəşf etmiş olmarıq. Baxmayaraq ki, Paşinyan Amerikanın kəşfini də babalarının adına çıxır, "Böyük Tiqran dövrü" nağıllarından həvəslə danışır...

Elə İlham Əliyev də erməni yalanlarını yalnız tarixi faktlarla deyil, həm də ironiya, sarkazmla ifşa etdi.

Azərbaycan Prezidenti əsrlər boyu bütün dünyada səslənən, qəbul edilən, rəsmi münasibətlərdə əksini tapan erməni yalan mexanizmini süquta uğratmaqla yanaşı, həm də:

*- Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğunu;*

*- ermənilərin bu ərazilərə sonradan köçürüldüyünü;*

*- bütün hüquqi-inzibati sənəd və qərarlarda Dağlıq Qarabağın daim Azərbaycan torpağı kimi tanındığını;*

*- müasir beynəlxalq hüququn Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığını birmənalı qəbul etdiyini;*

*- münaqişənin nizamlanmasında hər iki tərəfin maraqlarını və sabahını təmin edəcək ən optimal seçimin məhz mərhələli həll variantı olduğunu;*

*- Xocalı faciəsinin müasir dünyanın ən amansız soyqırımlarından biri kimi beynəlxalq miqyasda qəbul edildiyini;*

*- Azərbaycanın unikal multikultural və tolerant mühitində erməni xalqının bütün etnik identifikliyini qoruyacağını bəyan və isbat etdi!*

#### Münxen debatının əsas nəticələri

Paşinyanın bəxti onda gətirdi ki, debata qısa vaxt ayrılmışdı. Uğradığı rəzalətin yaratdığı beynəlxalq rezonans isə olduqca böyükdür. Xarici dövlətlərlə yanaşı, öz ölkəsində üzləşdiyi məzəmmət, kəskin etirazlar, ermənilərin öz rəhbərlərinin Azərbaycan Prezidenti qarşısında gülünc və çıxılmaz duruma düşdüyünü açıq bəyan etmələri baş nazirin siyasi iflasıdır.

Amma Münxen debatının daha mühüm nəticələri var.

İlham Əliyev Paşinyana siyasət, tarix, hüquq, diplomatiya və ədalət dərsi keçdi, sonra isə imtahandan kəsdi...

İlham Əliyev faktlarla, məntiqlə Paşinyanın bütün iddialarını darmadağın etdi, onu çaşdırdı, çıxılmaz vəziyyətə və aciz duruma saldı...

İlham Əliyev Paşinyanın simasında bütün dünyaya sübut etdi ki, Ermənistan işğalçı dövlətdir, Dağlıq Qarabağın ermənilərə məxsus olduğunu təsdiq edən hər hansı bir fakt, sənəd yoxdur...

İlham Əliyev Paşinyanın timsalında nümayiş etdirdi ki, artıq dünya erməniliyinin mövqeyi çox zəifdir, erməni pafosu, yalanı, demaqogiyası daha hədəfə çatmır...

İlham Əliyev Paşinyanın kəkələməsi, acizliyi kontekstində göstərdi ki, Azərbaycanın 20 illik hücumçu diplomatiyası erməni lobbisinin 200 illik şər maşını üzərində tam qalibdir...

İlham Əliyev Paşinyanın üslubunu ifşa edərək göstərdi ki, dövlət başçılarının əsl lider, yaxud təsadüfi rəhbər olması onların öz xalqlarının sabahını, müqəddəratını necə müəyyənləşdirəcəyini təmin edən əsas amildir...

İlham Əliyev Münxen debatında yalnız dünya erməniliyinə növbəti sarsıdıcı zərbə vurmadı, həm də Paşinyanın siyasi maskasını cırıb atdı...

İlham Əliyevin Paşinyanı dəfələrlə məsxərəyə qoyması, gülüş obyektinə çevirməsi bu debatın ovqatını da, psixoloji üstünlüyün kimdə olmasını da aydın nümayiş etdirdi...

*Və beləliklə, İlham Əliyevin növbəti "master-klası" - ustad dərsi diplomatiya salnaməsinə həkk olundu...*

***İxtiyar HÜSEYNLİ,***
***"Azərbaycan"***

## Darya QREVTSOVA: "İlham Əliyevlə müqayisədə Paşinyan dünya siyasətçilərinin ən aşağı kateqoriyasına daxildir"



"Münxen Konfransında Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan arasında diskussiya bu tədbirin ən maraqlı hadisələrindən biri oldu. Bu, "siyasi boks" üslubunda duel idi. Müşahidəçilərin mütləq əksəriyyəti qeyd edirlər ki, xalların sayına görə Azərbaycan Prezidenti İlham Əliyev inamlı qələbə qazandı".

Bu fikirləri Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin panel müzakirəsini şərh edən Rusiyanın Siyasi Tədqiqatlar İnstitutunun direktor müavini Darya Qrevtsova AZƏRTAC-a bildirib.

D.Qrevtsova vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyev bir neçə dəfə Nikol Paşinyanın səhvlərini tutub. O qeyd edib: "O, bunu Stalinin heç də Dağlıq Qarabağı Azərbaycanın tərkibinə vermədiyini və Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalacağını təsdiq etməklə etdi. Həmçinin İlham Əliyev Şaumyan rayonunun sovet dövründə Dağlıq Qarabağa məxsus olması barədə Paşinyanın iddiasını da ifşa edib. O qeyd edib ki, bu rayon heç vaxt Dağlıq Qarabağın tərkibində olmayıb. Hətta Nikol Paşinyan tələsik və çaşqın vəziyyətdə öz səhvini etiraf etməli olub".

Ekspert vurğulayıb ki, bu cür mötəbər tədbirlərdə faktlarla bağlı səhvlərə yol verilməsi tamamilə qəbuledilməzdir. O, əlavə edib: "Hər hansı lider bir dəfə səhvə yol verə bilər, lakin bütün dünya arenası qarşısında, mühüm siyasi diskussiya zamanı, dünya təhlükəsizliyi üzrə əsas tədbirdə bunu etmək sadəcə bağışlanmazdır. Bu, onu göstərir ki, İlham Əliyevlə müqayisədə Paşinyan dünya siyasətçilərinin sadəcə başqa, ən aşağı kateqoriyasına daxildir. İlham Əliyevin MDBMİ-də aldığı yüksək təhsil və ümumilikdə Rusiya diplomatik məktəbi ona imkan verdi ki, Nikol Paşinyanın, sözün əsl mənasında, kürəyini yerə vursun.

# Etibarlı tərəfdaş, sabit neft təchizatçısı

### Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransında iştirakı Azərbaycanın yüksək nüfuzunun təsdiqidir

*Əvvəli 1-ci səh.*

Öncə Azərbaycan Prezidentinin fevralın 14-15-də Münxendə dövlət və hökumət başçıları, beynəlxalq şirkət və komitə rəhbərləri ilə keçirilən görüşlərdə səsləndirdiyi fikirlərə diqqət yetirək.

Azərbaycanın dünya enerji bazarında çox etibarlı tərəfdaş kimi tanındığını söyləyən Prezident son dövrlərdə ölkəmizin alternativ enerji resurslarının inkişafı istiqamətində atdığı addımları diqqətə çatdırdı. Cənab İlham Əliyev bildirdi ki, məhz buradakı təmaslar nəticəsində çoxlu sayda ticarət müqavilələri imzalanıb. Qarşıdakı illərdə isə daha çox uğurlar olacaq, çünki daha böyük potensiala malik Azərbaycanın imkanları getdikcə artır.

Prezidentin digər görüşlərində də Azərbaycanda iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı və şaxələndirilməsi istiqamətində görülən işlərin, iqtisadiyyatın rəqəmsallaşdırılmasının və Davos Forumu ilə Azərbaycan arasında əldə edilmiş razılaşmaya əsasən Dördüncü Sənaye İnqilabı üzrə Bakıda regional mərkəzin yaradılmasının əhəmiyyəti qeyd edildi. Ölkəmizdə xarici investorlar üçün cəlbedici sərmayə mühitinin olduğu diqqətə çatdırıldı. Eyni zamanda Azərbaycanın Şimal-Qərb, Şimal-Cənub və Şərq-Qərb istiqamətləri üzrə nəqliyyat dəhlizlərindəki əsas rolundan bəhs olundu, ölkəmizin öz coğrafi yerləşmə potensialını fürsətlərə çevirdiyi bildirildi.

Konfrans çərçivəsində "Enerji təhlükəsizliyi" mövzusunda keçirilən "dəyirmi masa"da isə cənab İlham Əliyev Azərbaycanın imkanlarından və həyata keçirdiyi beynəlxalq layihələrdən söz açdı. Eyni zamanda neft ixrac edən ölkələrin (OPEC) mövcud durumunu dəyərləndirdi.

Öncə Prezident "Cənuq qaz dəhlizi" ilə bağlı ətraflı məlumat verərək bildirdi ki, ötən il Avropanın enerji təhlükəsizliyi üçün əlamətdar olub. Çünki Azərbaycan tərəfdaşları ilə birlikdə artıq Türkiyə-Yunanıstan sərhədinə çatan, əsas qaz kəməri olan TANAP-ı uğurla başa çatdırıb. Bu, o deməkdir ki, "Cənub qaz dəhlizi"nin dörd seqmentindən üçü artıq uğurla tamamlanıb. Sonuncu seqmentə gəlincə, TAP layihəsi bu ilin sonunda tamamlanacaq. Beləliklə, 3,5 min kilometr uzunluğunda inteqrasiya olunmuş kəmər sistemi artıq istismara veriləcək: "Bu, regionumuzda əsas infrastruktur layihələrindən biridir. Bu, əlbəttə ki, bizim üçün, tərəfdaşlarımız üçün, Avropanın enerji təhlükəsizliyi üçün çox vacibdir".

Prezident, həmçinin vurğuladı ki, Azərbaycan gələcək layihələrlə bağlı yeni ölkələrlə işləyir. Çünki "Cənub qaz dəhlizi" yeddi ölkəni - Azərbaycan, Türkiyə, Gürcüstan, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliyanı birləşdirir. Üç Balkan ölkəsi isə - Bosniya və Herseqovina, Monteneqro və Xorvatiya - bu üç ölkənin ərazisindən keçən, xüsusilə İonik-Adriatik kəmərinin tikintisini nəzərdə tutan ikinci fazada layihəyə qoşulmaqla bağlı artıq Anlaşma Memorandumu imzalanıb: "Bizimlə "Cənub qaz dəhlizi" üzərində işləyən bəzi ölkələrin tarixdə ilk dəfə alternativ təchizat mənbələrinə malik olmaq imkanı olacaq. Alternativ mənbə təkcə marşrut deyil. Çünki təhlükəsizlikdən danışanda biz mənbədən danışmalıyıq. Bizim timsalımızda Azərbaycan qazının Avropa bazarına, Türkiyə bazarına nəqli yeni mənbə və yeni marşrutdur. Düşünürəm ki, bu, bizim layihəmizin üstünlüyüdür və buna görə də Avropa İttifaqı ona güclü dəstək verir. Bu səbəbdən də yekun tamamlanma işlərinin bu ilin sonunadək olacağına baxmayaraq, biz "Cənub qaz dəhlizi"ni artıq tamamlanmış layihə hesab edə bilərik".

Cənab İlham Əliyev Azərbaycanın həm də çox sabit neft təchizatçısı olduğunu söyləyərək bildirdi ki, 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan kəmərinin açılışından bəri heç bir fasilə, fors-major və ya problem baş verməyib. Geosiyasi və texniki nöqteyi-nəzərdən onu da həyata keçirmək çox çətin idi, çünki ilk dəfə olaraq o, Xəzər və Aralıq dənizlərini birləşdirirdi.

Ölkəmizin "OPEC+"un fəal üzvü olduğunu vurğulayan Azərbaycan Prezidenti 2016-cı ildə Davosda "Neftin qiyməti ilə bağlı nə etmək olar" sualını xatırlayıb. Qeyd edək ki, həmin zaman dövlətimizin başçısı təkliflə çıxış etmişdi. Cənab İlham Əliyev təklif etmişdi ki, əsas odur qeyri-OPEC ölkələri və OPEC ölkələri bir araya gələrək razılaşsınlar. Bu təklifdən sonra tərəflər arasında razılıq əldə olundu və OPEC+ formatında əməkdaşlıq bu gün uğurla davam edir: "Düşünürəm ki, "OPEC+" əməkdaşlığının davam etdirilməsi çox vacibdir. Çünki bu gün bizdə vəziyyət elədir ki, OPEC və qeyri-OPEC ölkələri bir təşkilatda fəaliyyət göstərir. Bizim bundan başqa belə təşkilatımız və əməkdaşlığımız yoxdur. Bəzən bir təşkilat daxilində razılığa gələ bilmirlər. Bizdə isə bu nadir format var və biz bunu əldən buraxmamalıyıq".

Prezident, həmçinin Azərbaycanda bərpaolunan enerjiyə böyük diqqət yetirildiyini deyərək diqqətə çatdırıb ki, qarşıya qoyulan məqsəd 2030-cu ilə qədər elektrik enerjisinin 30 faizini bərpaolunan enerji hesabına ödəməkdir.

Bir sözlə, cənab İlham Əliyev yanvar ayında keçirilən Davos Forumundan sonra 56-cı Münxen Təhlükəsizlik Konfransında da Azərbaycanın real imkanlarını, potensialını bir daha dünyaya bəyan etdi və böyük şirkətlərin, investorların diqqətini ölkəmizə yönəltdi.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Hulusi KILIÇ: "Prezident İlham Əliyev işğalçı ölkənin hökumət başçısına, sözün əsl mənasında, dərs verdi"



"Ermənistan tərəfi işğalçılıq siyasəti həyata keçirdiyi üçün açıq müzakirəyə hazır deyil. Dünyada ikili standartların tüğyan etməsinə baxmayaraq, həqiqət və fakt qarşı tərəfi mat vəziyyətinə salıb. Paşinyan bütün dünyaya göstərdi ki, erməni siyasətçilərdə yalan danışmaq, geniş ictimaiyyəti aldatmaq cəhdləri, sadəcə, genetik bir vərdişdir".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin ölkəmizdəki sabiq səfiri Hulusi Kılıç bildirib.

Əslində, Ermənistanın təcavüzkar siyasətinin çoxdandır ki, bütün dünyaya bəlli olduğunu ifadə edən səfir qeyd edib ki, Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsini dünya ictimaiyyəti qarşısında açıq müzakirəyə çıxarmaqla, Azərbaycanın xarici siyasətinə yenilik gətirdi. Əlamətdar odur ki, belə ilk müzakirədə Prezident İlham Əliyev konstruktivliyini və məsələnin ədalətli dialoq yolu ilə həllinə tərəfdar olduğunu açıq göstərdi və Ermənistanın hökumət başçısını dalana dirədi. Qarşı tərəfin səsləndirdiyi ziddiyyətli ifadələr, yalan dolu "tarix" danışması və müasir dünyanın gözü qarşısında törətdikləri cinayətləri ört-basdır etmə cəhdi, işğal altındakı 7 rayondan, bir milyondan çox məcburi qaçqın və köçkün barədə danışmaq istəməməsi qəti şəkildə özünü doğrulda bilməzdi. Çünki o tarixi faktlar, dərin mühakimələr və beynəlxalq hüququn müəyyən etdiyi gerçəkliklərlə üz-üzə qalmışdı.

Səfir deyib: "Sülhsevər dünya ictimaiyyətinin, ədalətli siyasətçilərin qətiyyən şübhəsi yoxdur ki, Ermənistan tərəfinin Dağlıq Qarabağa dair ərazi iddiaları tam əsassızdır. Müzakirədən göründüyü kimi, Ermənistanın hökumət başçısının işğal faktını ört-basdır etmək cəhdləri boşa çıxdı. Çünki onun Dağlıq Qarabağın tarixi, ermənilərin Qafqaza köçməsi və s. məqamlara dair ortaya atmaq istədiyi fikirlər bir-birini təkzib edirdi".

## Oleksandr BOYKO: "Münxendə keçirilən diskussiya Ermənistan tarixində qara gün oldu"

"Ötən şənbə günü Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan arasında debatlar Ermənistan tarixində qara gün oldu. Bu barədə AZƏRTAC-a Macarıstanın Dunayvaroş Universitetinin tədqiqatçısı Oleksandr Boyko bildirib".

Ukraynada dünyaya gələn və böyüyən, bu səbəbdən keçmiş SSRİ-də baş verən proseslərə heç də biganə olmayan ekspert postsovet məkanında liderlərin və digər nümayəndələrin çıxışlarını diqqətlə izləyir. Boyko Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə həsr edilmiş paneli konfransın ən maraqlı hadisəsi adlandırıb. O deyib: "Açıq-aşkardır ki, bu paneldə müzakirə daha gərgin keçdi. Tərəflər problemlə bağlı və onun həlli üzrə öz fikirlərini ifadə etdilər. Azərbaycan liderinin çıxışında çoxillik təcrübə özünü göstərirdi. Bunu öz inqilabları haqqında (sülh və ya qeyri-sülh, mikro, yaxud makro) dünyaya car çəkən erməni baş nazir haqqında söyləmək mümkün deyil. Onun fikirləri müzakirə olunan mövzuya aid deyildi. Bu, kimə maraqlı idi ki? Hiss olunurdu ki, Paşinyan bu cür yüksək beynəlxalq podiumlara çıxmağa hazır deyil.

Çar Tiqranın və ya Paşinyanın bəhs etdiyi digər sülalələrin dövrünün münaqişənin həllinə nə dərəcədə dəxli olduğu məsələsinə toxunan Boyko bu fikirlərin tamamilə yersiz olduğunu vurğulayıb.

Həmsöhbətimiz əlavə edib: "Ümumiyyətlə, deməliyəm ki, bu cür uzaq zamanlara ekskursiyalar sırf diletantların işidir. Çünki onlar deməyə söz tapmırlar və beynəlxalq hüquq çərçivəsində söhbət apara bilmirlər. Adətən, bu cür söhbətləri parkda oturan təqaüdçülər, taksi sürücüləri, tumsatanlar aparırlar. Mən Ukraynanın Çerkassk vilayətində yaşadığım zaman bunun şahidi olmuşam. Həmin uzaq zamanlara müraciət edən erməni baş nazir də onlardan birinə bənzəyir. Halbuki, söhbəti mövzu ətrafında, məsələnin mahiyyəti üzrə, kənara çıxmadan və auditoriyanı bu cür şübhəli ekskursiyalarla məftun etməyə çalışmadan aparmaq lazımdır. Paşinyanın bir mövzudan digərinə, müasir dövrdən qədim vaxtlara amplituda sıçrayışları onunla yekunlaşdı ki, baş nazir çox danışmasına rəğmən ciddi heç bir şey söyləmədi və bununla da Azərbaycan Prezidentinə dəqiq arqumentli zərbələr endirmək imkanı verdi. Bu səbəbdən Paşinyanın Münxendəki çıxışı Ermənistan üçün müsbət heç bir şey gətirmədi. Bu, onun tarixində qara gün oldu".

## Prezident İlham Əliyevin qətiyyətli mövqeyi Ermənistanın baş nazirini gülünc vəziyyətə saldı

"Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olmasını bütün beynəlxalq platformalarda dünyaya çatdıran Azərbaycan Prezidenti İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı paneldə də tarixi bilikləri, mövzu ilə bağlı ortaya qoyduğu faktlar və qətiyyətli mövqeyi ilə bir daha böyük lider olduğunu hər kəsə nümayiş etdirdi".

Bu sözləri AZƏRTAC-a müsahibəsində Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələri şərh edən Türkiyənin "Can Azərbaycan" media şirkətinin rəhbəri Namık Kamal Yıldırım deyib.

"İlham Əliyevin Qarabağın tarixi Azərbaycan torpağı olması ilə bağlı BMT-nin qətnamələrini xatırladaraq tarixi əsaslarla çıxışı bir türk olaraq hər birimizi qürurlandırdı. Azərbaycan Prezidentinin qətiyyətli mövqeyi və duruşu qarşısında Ermənistanın baş naziri çox gülünc vəziyyətə düşdü. Ermənilər liderlərinin simasında bir daha acizliklərini sübut etdilər. Nikol Paşinyan Azərbaycanın keçmiş dövlət başçısı Ayaz Mütəllibovun guya qəzetə verdiyi müsahibəni əsas gətirərək Xocalı soyqırımının ölkədəki qüvvələr tərəfindən törədildiyini bildirdi. Lakin bu cəfəngiyyatdan başqa bir şey deyil və Azərbaycan Prezidenti buna çox tutarlı cavab verərək Paşinyanı susdurdu", - deyə N.K.Yıldırm söyləyib.

Qarabağın əzəli Azərbaycan torpağı olduğunu vurğulayan N.K.Yıldırım deyib: "Bu tarixboyu belə olub və belə də qalacaq. Bu bölgənin Azərbaycan sərhədlərinə daxil edilməsi ilə bağlı Ermənistan liderinin çıxışı isə Prezident İlham Əliyev tərəfindən tarixə dayanan cavabla susduruldu".

## Türkiyəli hüquqşünas: "Ermənistanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi beynəlxalq hüquqa təhdiddir"

"Prezident İlham Əliyev bir daha dünya ictimaiyyətinə sübut etdi ki, Ermənistan tərəfi beynəlxalq hüquq qarşısında məsuliyyət daşıyır. Artıq heç kimə sirr deyil ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistan tərəfinin mövqeyi beynəlxalq hüquqa təhdiddir".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələrin nəticəsini şərh edən Türkiyənin Hacettepe Universitetinin beynəlxalq hüquq üzrə müəllimi, hüquq elmləri doktoru Bahadır Bumin Özarslan söyləyib.

Siyasət və hüququn ziddiyyətli fikirləri heç zaman qəbul etmədiyini vurğulayan B.Özarslan deyib: "Ermənistanın baş naziri iddia edir ki, guya Dağlıq Qarabağ Ermənistan ordusu tərəfindən deyil, bölgədəki erməni silahlı birləşmələri tərəfindən zəbt olunub. Elədirsə, o zaman uzun illərdən bəri Ermənistan rəhbərliyi bu müzakirələrdə niyə iştirak edib? Azərbaycan hələ çox-çox əvvəl bəyan etmişdi ki, Azərbaycan tərəfi Dağlıq Qarabağa ən yüksək muxtar idarəetmə statusu verməyə hazırdır. Əgər işğalçı Ermənistan tərəfi deyilsə, o zaman bir tərəfə çəkilsinlər. Azərbaycan tərəfi öz vətəndaşı olan Dağlıq Qarabağ ermənilər ilə məsələni həll edib sülh şəraitində yaşasınlar. İkinci, əgər Ermənistan işğalçı deyilsə, onda nə üçün baş nazirin oğlu bu bölgədə hərbi xidmət keçir? Təkcə bu iki fakt Ermənistanın Dağlıq Qarabağ və ətrafındakı 7 rayonu işğal etdiyini təsdiq edir. Bu münaqişədən doğan bütün faciə və fəsadların, eləcə də hər an baş verə biləcək risklərin məsuliyyətini beynəlxalq hüquq qarşısında Ermənistan daşıyır".

Avropa İnsan Hüquqları Məhkəməsinin Böyük Palatasının "Çıraqov və digərləri Ermənistana qarşı" işi ilə bağlı qərarını xatırladan hüquqşünas diqqətə çatdırıb ki, bu qərar Azərbaycanın Laçın rayonundan zorla qovulmuş altı Azərbaycan vətəndaşı tərəfindən 2005-ci il aprelin 6-da Avropa İnsan Hüquqları Məhkəməsində Ermənistan Respublikasına qarşı qaldırılmış iddia müraciətinə əsaslanır. Mahiyyət etibarilə, məhkəməyə iddia müraciəti irəli sürən şəxslər Ermənistan silahlı qüvvələri tərəfindən Laçın rayonunun işğalının davam etdirilməsi ilə əlaqədar Laçın rayonunda öz evlərinə qayıtmaqdan məhrum edilib və beləliklə, onlar orada yerləşən mülkiyyətlərindən istifadə edə bilməyiblər. Ermənistan tərəfi unutmamalıdır ki, Avropa İnsan Hüquqları Məhkəməsinin sözügedən qərarı mənəvi baxımdan Dağlıq Qarabağ münaqişəsi nəticəsində yurd-yuvasını itirən bütün azərbaycanlıların hüquqlarına aid olan məsələdir.

# Azərbaycan hər nəfərə düşən büdcə xərclərinə görə regionda liderdir

*Vüsal QASIMLI:* “Fiskal islahatlar respublikamızı bölgənin ən rəqabətqabiliyyətli və sosial rifah dövlətinə çevirib”



*Əvvəli 1-ci səh.*

Beləliklə, nəticə əsaslı büdcə dövlət xərcləmələrinin daha ünvanlı, optimal və səmərəli istifadəsini təmin edəcək.

2021-ci il dövlət və icmal büdcə layihələri və sonrakı üç il üçün icmal büdcə göstəricilərinin hazırlanması ortamüddətli xərclər çərçivəsinə uyğun təmin ediləcək. Bunun üçün 39 bənddən ibarət “Tədbirlər Planı” təsdiq olunub.

Azərbaycanda ümumi amil məhsuldarlığının səviyyəsi göstərir ki, biz daha çox institutsional islahatların və insan kapitalının inkişafı hesabına iqtisadi artımı sürətləndirə bilərik. Eyni zamanda fiskal institutların inkişafı, o cümlədən, büdcə qaydaları, ortamüddətli xərclər çərçivəsi və nəticə əsaslı büdcənin tətbiqi iqtisadi artımı sürətləndirməyə hesablanıb. Bu baxımdan cənab Prezidentin rəhbərliyi ilə fiskal institutların inkişaf etdirilməsinin mühüm əhəmiyyəti var. Bundan başqa, dövlət müəssisələrində korporativ standartların tətbiqinin daha da genişləndirilməsi həm fiskal dayanıqlılığın, həm də iqtisadi səmərəliliyin artırılmasına və rəqabət mühitinin yaxşılaşdırılmasına töhfə verəcək. Ortamüddətli xərclər çərçivəsi həm də ortamüddətli resurs zərfinin və milli xərc prioritetlərinin uyğunlaşdırılmasını təmin edəcək.

*- Nəticə əsaslı büdcənin mexanizmi necə qurulur?*

- Nəticə əsaslı büdcə hər hansı bir proqram üçün ayrılan büdcə vəsaitlərinin səviyyəsi ilə həmin proqramdan gözlənilən nəticələr arasında əlaqə yaradan büdcə hazırlanması prosesidir. Belə bir büdcə hazırlanması prosesi büdcə vəsaitlərinin xərclər baxımından daha səmərəli və effektiv xərclənməsini təmin edir. Proqram əsaslı büdcə hazırlanması adlanan bu yeni metodologiyaya əsasən, büdcə prosesi və büdcə sənədlərində strateji məqsədlər, tədbirlər, instrumentlər və onların xərcləri barədə izahlı məlumat təqdim olunur. Bu tipli büdcələrdə əsas fəaliyyət indikatorları bunlardır: müəyyən məqsədləri əldə etmək üçün dövlət qurumu tərəfindən görüləcək işlərin və göstərilən xidmətlərin sayı, keyfiyyəti və xərcləri, bu tədbirlərin və xidmətlərin icrasından gözlənilən nəticə indikatorları.

Bu tələb edir ki, büdcənin planlaşdırılması və ümumilikdə büdcə icrası prosesinə inteqrasiyalı yanaşma tətbiq olunsun ki, bu da prioritetlərin düzgün müəyyənləşdirilməsini və büdcə prosesindən daha səmərəli istifadəni təmin edir. Sağlam nəticə əsaslı büdcə sisteminin hazırlanması və tətbiqi üzrə texniki prinsiplər var ki, bu Nəticələr Nəzəriyyəsində əks olunub. Bu yeni çərçivəyə görə, nəticə əsaslı büdcədə missiya, hədəflər, məqsədlər və vəsaitin nə üçün xərclənməsinin izahı təqdim edilir. Burada əsas məqam “nəticə”dir. Bu metodun tətbiqi ilə bütünlükdə planlaşdırma və büdcə çərçivəsi nəticəyönümlü olur ki, bunun da əsasında qiymətləndirmə dayanır. Bu proses 3 elementdən ibarətdir: nəticə, strategiya (yekun nəticəni əldə etmək üçün müxtəlif vasitələr) və fəaliyyət - son məhsul (yekun nəticəni əldə etmək üçün görülməli işlər və tədbirlər).

Sonuncu element üçün Əsas Nəticə İndikatorları (KPİ) müəyyən edilməlidir. Bir sözlə, nəticə əsaslı büdcə “strategiya və planlaşdırmanın icra və ölçmə ilə kəsişməsidir”.

*- Nəticə əsaslı büdcəyə nail olunması istiqamətində xarici təcrübə necədir və Azərbaycanda qabaqcıl təcrübənin tətbiqi imkanları barədə nə demək olar?*

- Məsələn, əvvəllər ABŞ-da ali təhsildə nəticə əsaslı büdcənin tətbiqi şagirdlərin ali təhsil ocaqlarına qəbul olunmasını təşviq etməyə hədəflənmişdi. Belə ki, hansı ali təhsil müəssisəsinin 1-ci semestrinin əyani şöbəsinə daha çox şagird qəbul olunursa, həmin quruma büdcədən daha çox maliyyə vəsaiti ayrılırdı. Sonradan isə, vaxt keçdikcə maliyyələşdirmə formulası dəyişdi ki, bu, ABŞ-ın hazırda 30 ştatında tətbiq olunur və buraya təkcə şagird qəbulu deyil, həm də ali təhsili tam bitirmə, dərəcə alma, əldə edilən dərəcələrin sayı, aztəminatlı ailədən olan məzunların sayı kimi meyarlar (KPİ-nəticə indikatorları) əlavə olundu. təhsil nəticə əsaslı büdcənin tətbiq edilməsinin üstün cəhətləri bunlardır: tələbə qəbulu və ali təhsiln əlçatanlığının artırılmasına stimul verir; təhsil prosesində nəticələrə və nailiyyətlərə diqqət yönəldilir; nəticə indikatorları meyarlarına cavab verən qurumlara resursların ədalətli bölüşdürülməsini təşviq edir. Zəif cəhəti isə nəticə indikatorlarının müəyyən edilməsinin çətin olması və eləcə də nəticələrin əldə edilməsi uzun müddət tələb etdiyi üçün bu nəticələrin ölçülməsinin bəzən qeyri-mümkün olmasıdır.

Nəticə əsaslı büdcə müəyyən nəticələrə nail olmağa yönəlmiş proqram icrasını və idarəetmənin səmərəliliyini, effektivliyi və hesabatlılığı yaxşılaşdırmaq məqsədini daşıyan iştirakçı və komanda əsaslı büdcə idarəetmə yanaşmasıdır.

Azərbaycanda siyasət əsaslı (policy based budgetting) büdcənin tətbiqi sahəsində önəmli təkmilləşdirmədən biri kimi Prezidentin 2010-cu il mart tarixli 239 saylı fərmanını qeyd etmək olar ki, bu fərmanda Dövlət İnvestisiya Proqramının (DİP) hazırlanması, icrası və monitorinq-qiymətləndirilməsi tələb olunur. DİP büdcə prosesinə inteqrasiya edilib və bu sahədə əldə edilən irəliləyişlər büdcə hazırlanması və icrası prosesinin nizam-intizamının artırılması ilə nəticələnib.

Nəticə əsaslı büdcə mexanizminin tətbiqi həm dövlət sektoruna, həm də mediaya büdcə xərclərini izləməyə imkan yaradacaq. Məsələn, nəticə əsaslı büdcənin tətbiq edildiyi Norveçdə Parlamentin Maliyyə və İqtisadi İşlər Komitəsi intensiv surətdə büdcə layihələrinin müzakirəsini aparır. 1999-cu ildə komitədə xüsusi tədqiqat departamenti yaradılıb ki, bu istiqamətdə təhlillər həyata keçirilsin.

*- Ortamüddətli xərclər çərçivəsinin tərkib hissəsi olan milli xərc prioritetləri necə müəyyənləşəcək?*

- Milli xərc prioritetləri strateji yol xəritələri, sektor strateji planları, həmçinin büdcə təşkilatlarından daxil olmuş yeni siyasət təşəbbüsləri ilə əlaqələndirilməklə, məhdud sayda tərtib olunur. Burada maksimum 5-dək milli xərc prioriteti müəyyənləşdirmək olar. Xüsusi hallarda isə milli xərc prioritetləri 7-dək ola bilər.

Azərbaycan iqtisadiyyatının sektor skanı da göstərir ki, altı sektoru prioritet edib, ona fokuslanmaq daha düzgündür. Çili, Çexiya, Koreya və başqa uğur hekayələrində də 6-7 sektor üzrə ixtisaslaşmanın daha çox fayda gətirdiyini görürük. Məqsəd ən böyük potensialın hansı sahələrdə olmasını müəyyənləşdirmək və daha sonra həmin sahələrə investisiyaların proaktiv şəkildə təşviq edilməsi ilə bu sahələrin inkişafına nail olmaqdır. Şaxələndirmədən ixtisaslaşmaya keçidə fiskal siyasət də dəstək verir.

Yeri gəlmişkən, milli xərc prioritetləri ən yüksək prioritet səviyyəsindən ən aşağı prioritet səviyyəsinə doğru qiymətləndirilir. Resurs zərfi məhduddursa, ən yüksək prioritetə malik təşəbbüslərin, ilk növbədə, digərlərinin isə ortamüddətli dövrdə maliyyələşdirilməsi təsdiq edilir.

*- Yeni siyasət təşəbbüslərinin büdcədə “ağırlıq” yaratmaması və inflyasiyaya səbəb olmaması üçün nə kimi tədbirlər görüləcək?*

- Yeni siyasət təşəbbüslərini büdcə təşkilatları təqdim edir. Yeni siyasət təşəbbüsləri iqtisadi cəhətdən əsaslandırılmalı və milli xərc prioritetlərinə, o cümlədən sektor strateji planlara uyğun olmalıdır. Təklif olunan bütün yeni siyasət təşəbbüslərinin ümumi illik həcmi növbəti büdcə ili üçün ayırmaların 10 faizindən çox ola bilməz. Büdcə təşkilatlarının baza proqnozları və yeni siyasət təşəbbüsləri əsasında ortamüddətli resurs zərfi tərtib edilir. Digər tərəfdən büdcə siyasətini müəyyənləşdirərkən ortamüddətli monetar siyasət göstəriciləri, pul proqramı və tədiyyə balansı proqnozları nəzərə alınır. Beləliklə, fiskal və monetar siyasət uzlaşdırılır.

Büdcə qaydalarına əsasən, icmal büdcə xərclərinin yuxarı həddi müəyyənləşir. Yuxarı hədd icmal büdcənin xərclənə bilən neft gəlirləri, icmal büdcənin qeyri-neft gəlirləri və icmal büdcəyə digər daxilolmaların cəmi əsasında hesablanır. Xərclənə bilən neft gəlirləri isə xalis maliyyə aktivlərinin 30 faizindən çox olmamaqla müəyyənləşdirilir. Beləliklə, büdcənin “qızıl qayda”ları fiskal dayanıqlılığı təmin edir.

*- Azərbaycanda büdcə həcminin dəyişməsinin iqtisadi artıma təsirini ifadə edən fiskal multiplikator neçədir?*

- İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində maliyyə proqramlaşdırılması çərçivəsində apardığımız ekonometrik hesablamalar onu göstərir ki, fiskal multiplikator son üç ildə qeyri-neft sektoru üzrə 0,5 və idxal üzrə isə 1,2 olmuşdur. 2004-2008-ci illərdə fiskal multiplikatorlar qeyri-neft sektoru üzrə 0,7 və idxal üzrə 1,2 olduğu halda, 2009-2013-cü illərdə bu göstəricilər müvafiq olaraq 1,5 və 2,3 həddinə yüksəlmişdir. Başqa sözlə, fiskal multiplikator 2004-cü ildən - yəni əsas neft gəlirlərinin daxil olmasına uyğun büdcənin sürətlə böyüməsinə müvafiq şəkildə artmışdır. 2013-cü ildə fiskal multiplikator maksimal həddə çatdıqdan sonra azalmağa başlamışdır. Bu o deməkdir ki, təkcə fiskal alətlə iqtisadi artımı təmin etmək imkanları məhdudlaşır. Buna görə də sürətlənən biznes və institutsional islahatlar özəl sərmayənin cəlbini təmin etməklə iqtisadi artımı sürətləndirməlidir.

*- Azərbaycanda fiskal multiplikatora təsir edən amillər hansılardı?*

- Kölgə iqtisadiyyatının həcminin son illərdə kiçilməsi fiskal multiplikatora müsbət təsir göstərir. İlzetzkinin fikrincə, iqtisadiyyat nə qədər kiçik olursa, fiskal multiplikator da o qədər artır. Bu baxımdan Azərbaycan nisbətən kiçik iqtisadi miqyasları ilə daha yaxşı vəziyyətdədir. Amma iqtisadiyyatın açıq olması fiskal multiplikatora azaldıcı təsir göstərir, çünki fiskal stimullar müəyyən həddə idxalı maliyyələşdirməyə gedir.

Azərbaycanda fiskal institutların təkmilləşdirilməsi, o cümlədən vergi və gömrük inzibatçılığı sahəsində aparılan islahatlar fiskal multiplikatora müsbət təsir göstərir. Xüsusən də vergi yükünün sahibkarlar üçün optimallaşdırılması fiskal stimul kimi qiymətləndirilməlidir. Maliyyə Nazirliyində “Vergi və gömrük sahəsində verilmiş güzəştlərə dair “Mərkəzləşdirilmiş Elektron Reyestr Sistemi” yaradılır. Yeni sistem vasitəsilə ötürüləcək bəyannamə məlumatları güzəşt tətbiq olunan vergi və gömrük rüsumlarının hər bir növü üzrə mülkiyyət, iqtisadi fəaliyyət, neft və qeyri-neft sektoru parametrləri baxımından dövlət büdcəsinə güzəştlərin tətbiqi nəticəsində mədaxil olunmayan vəsaitlərin hesablanmasına, nəticə etibarı ilə faktiki büdcə itkilərinin müəyyən edilməsinə imkan yaradacaq. Buradan əldə olunmuş məlumat əsasında büdcə gəlirləri üzrə fiskal multiplikatoru daha dəqiq hesablamaq mümkün olacaq.

Dövlətin borcunun aşağı olması iqtisadi agentlərdə büdcə siyasətinə inamı artırır, beləliklə, “dar gün” üçün yığıma meyil azalır və bu hal fiskal multiplikatora artırıcı təsir göstərir. Korsettinin fikrincə, ölkədəki məzənnə rejimi nə qədər az çevikdirsə, pul siyasətinin büdcə siyasətinə uyğunluğu da bir o qədər yüksəkdir. Beləliklə, fiskal stimulun məzənnə kanalı vasitəsilə “sızması” ehtimalı da azalır. Azərbaycanda tənzimlənən məzənnə rejiminin olması fiskal stimulların məzənnə kanalı ilə axmasına imkan vermir. Əksinə, son aylarda Azərbaycanın valyuta bazarında izafi likvidlik manatın bahalaşmasına təzyiq göstərir.

Azərbaycanda qiymətli kağızlar bazarının az inkişaf etməsi, başqa sözlə, qiymətli kağızlar bazarının ÜDM-ə nisbətini ifadə edən Baffet əmsalının 17 faiz olması, fiskal multiplikatora artırıcı təsir göstərir.

Azərbaycanda 2019-cu ildə həyata keçirilən sosial paketin ünvanlılığı, daha doğrusu, ailələrə və əsasən da aztəminatlı insanlara yönəlməsi onların istehlak xərclərini və deməli, həm də fiskal multiplikatoru artırır.

Təhlil göstərir ki, Prezidentin rəhbərliyi altında Azərbaycanda aparılan fiskal islahatlar - fiskal intizamın yaxşılaşdırılması, dövlət müəssisələrində korporativ idarəetmənin gücləndirilməsi, büdcə xərcləmələrində səmərəliliyin və şəffaflığın artırılması və institutsional inkişaf büdcə siyasətini daha nəticəverən edir. Çünki indiki halda büdcə xərclərinin miqyası deyil, səmərəliliyi əsas hədəf olmalıdır.

*- Azərbaycanda dövlətin fiskal dəstəyini regional müqayisədə necə qiymətləndirərdiniz?*

- Hazırda alıcılıq qabiliyyəti pariteti ilə hesabladıqda Azərbaycanda hər nəfərə düşən icmal büdcə xərcləri 6,6 min beynəlxalq dollar təşkil edir ki, bu da Azərbaycanın Cənubi Qafqaz və Mərkəzi Asiyada bu göstərici üzrə lider ölkə olduğunu göstərir.

Alıcılıq qabiliyyəti pariteti ilə hesabladıqda Azərbaycanda hər nəfərə düşən icmal büdcə xərcləri Qazaxıstandan, Özbəkistandan və Ukraynadan 1,1, Tacikistandan 1,4, Ermənistandan 1,5, Moldovadan 2, Gürcüstandan 2,4 və Qırğızstandan 3,8 dəfə çoxdur. Azərbaycan region ölkələri ilə müqayisədə iqtisadiyyata kifayət qədər yüksək fiskal dəstək verir.

*- Fiskal siyasət iqtisadi artımı sürətləndirməkdə nə dərəcədə rol oynayacaq?*

- Səmərəli və nəticə əsaslı fiskal siyasət iqtisadi artımı dəstəkləyir. Amma bu yetərli olmadığından islahatlar kompleks aparılır. Frederick S. Pardee Mərkəzinin “Dünyanın Gələcəyi Modeli” əsasında hesablamaları göstərir ki, əgər bizim bölgədə iqtisadi artım tempi 2,2 faizi aşmasa, onda davamlı inkişaf məqsədlərinə çatmaqda çətinlik çəkəcəyik. Bu kontekstdə demək istəyirəm ki, Azərbaycanda iqtisadi artım tempinin son beş ildə sürətlənərək bu il 3 və gələn il 3,7 faizə çatması proqnozlaşdırılır. Asiya İnkişaf Bankının hesablamalarına görə bizim bölgədəki ölkələr daha da gücləndirilmiş islahat gündəliyinə keçməklə, daha doğrusu, institutsional islahatları və insan kapitalının inkişafının sürətləndirməklə indiki iqtisadi artım tempini 2-3 dəfə artıra bilərlər. Təsadüfi deyildir ki, cənab Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva insan kapitalının inkişafına bu qədər yüksək diqqət yetirirlər.

*- Fiskal siyasət katalizator rolunu oynayır və sərmayə cəlbinə şərait yaradır. Azərbaycanda qeyri-neft sektoruna sərmayə cəlbini necə qiymətləndirirsiniz?*

- Müstəqillik illərində Azərbaycanda hər nəfərə 30 min ABŞ dollarına yaxın sərmayə düşür ki, bunun da yarısını qeyri-neft sektoruna investisiya qoyuluşu təşkil edir. Qeyri-neft sektorunda əsas kapitala yönəldilmiş vəsaitlər ötən il 1,9 faiz artmışdır. Burada nəzərə alınası bir vacib məqam da var. Sərmayə qoyuluşu bir tərəfdən əsas fondların köhnəlməsini, digər tərəfdən isə yeni əsas fond ehtiyacını ödəməlidir. Vergi Məcəlləsinin tələbinə görə, əsas fondların amortizasiya normaları azalan qalıq prinsipinə əsasən belədir: binalar, tikintilər və qurğular - 7 faizədək, maşınlar və avadanlıq - 20 faizədək, yüksək texnologiyalar məhsulu olan hesablama texnikası üzrə - 25 faizədək, nəqliyyat vasitələri - 25 faizədək və s. Göründüyü kimi, əsas fonda sərmayə qoyuluşu ən azı köhnəlmə dəyərini qarşılamaqla bərabər həm də artıq olmalıdır ki, iqtisadi yüksəlişi dəstəkləsin. Bunun üçün Azərbaycanda əsas fondlara sərmayə qoyuluşunun daha üstün templə arıtımı təmin olunmalıdır.

Multiplikator-akselerator effektinin işləməsi lazımdır. Yəni sərmayə qoyuluşu iqtisadi artımı sürətləndirməlidir, eyni zamanda artan iqtisadiyyat yeni sərmayə qoyuluşunu təmin etməlidir. Sərmayə qoyuluşunda dövlətin payı azaldılmalıdır, çünki Azərbaycanda fiskal multiplikator getdikcə aşağı düşür. Yəni ölkənin iqtisadi inkişafının dövlət xərcləmələri hesabına təmin edilməsi potensialı azalır, bu mənada biz doyma nöqtəsinə yaxınlaşmışıq. Buna görə də Azərbaycanda daha çox qeyri-dövlət sərmayələrinin artması təşviq edilir. Bunun üçün Azərbaycanda əlverişli biznes mühiti, sabitlik, inkişaf etmiş infrastruktur və ucuz enerji daşıyıcılarımız var. Sərmayələrin cəlbini sürətləndirmək üçün institusional inkişaf və ixtisaslı işçi qüvvəsi məsələsinə indi daha çox diqqət yetirilir. Təsəvvür edin ki, Azərbaycanda yüzlərlə startaplar, onları maliyyələşdirməyə hazır insanlar, uğurlu startapları almağa razı olan investorlar olduğu halda, çatışmayan bu işi təşkil edəcək investisiya fondları və vençur fondlarıdı. Bu halda İsrail təcrübəsində olduğu kimi, vençur fondları bir institut olaraq startaplar, sahibkarlar və investorlar arasında işi təşkil etməklə uğur hekayəsi yarada bilərlər. Azərbaycanda bazar infrastrukturunun inkişafı istiqamətində islahatlar davam edəcək ki, bu da iqtisadiyyatın maliyyələşdirilməsini daha da artıracaq.

Hər sahənin son məhsulunun 1 milyon manat artmasının ölkə üzrə multiplikativ effektini UNEC-in İqtisadi Araşdırmalar Elmi-Tədqiqat Mərkəzi hesablamışdır. Əgər mədənçıxarma sənayesinin məhsulunun 1 milyon manat artmasının ölkə üzrə multiplikativ effekti 1,18 olmuşdursa, emal sənayesində bu göstərici 2,07 təşkil edib. Deməli, biz iqtisadiyyatın “emal dərinliyini” daha çox artırmalıyıq ki, daha yüksək multiplikativ effekt əldə edək.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən aparılan sistemli və davamlı islahatlar kursunun tərkib hissəsi olan fiskal islahatlar Azərbaycanı regionun ən rəqabətqabiliyyətli və sosial rifah dövlətinə çevirmişdir.

***Müsahibəni apardı: Rəşad CƏFƏRLİ, “Azərbaycan”***

# Qafqaz Müsəlmanları İdarəsinin sədri Səudiyyə Ərəbistanına səfərə gedəcək

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə fevralın 18-də Səudiyyə Ərəbistanına səfərə gedəcək.



İdarənin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, səfər çərçivəsində QMİ sədri KAICIID Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin Direktorlar Şurasının 21-ci sessiyasında iştirak edəcək.

Üzvü olduğu doqquz nəfərlik Direktorlar Şurasının sessiyasında çıxış edəcək QMİ sədri Qafqaz Müsəlmanları İdarəsinin nəzdində fəaliyyət göstərən Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin (BCIC) təşkilatçılığı ilə 2020-ci ilin payızında Macarıstanda keçiriləcək irimiqyaslı beynəlxalq konfrans barədə şura üzvlərini məlumatlandıracaq.

2019-cu ildə Dünya dini liderlərinin II Bakı Sammitində yaxından iştirak edən KAICIID-in baş katibi Feysal bin Muammara, habelə Direktorlar Şurasının üzvü Məhəmməd Sammaka fəal iştiraklarına görə xüsusi minnətdarlığını ifadə edəcək QMİ sədrinin yaxın dövr ərzində BCIC-in yeni mühüm addımlar atmağa hazırlaşdığını və mərkəzin xətti ilə cari il ərzində Azərbaycanda keçiriləcək müxtəlif yerli və beynəlxalq tədbirlərdə dinlər və sivilizasiyalar arasında əməkdaşlıq ideyalarının davamlı təbliğinin prioritet olacağını şura üzvlərinin diqqətinə çatdıracağı nəzərdə tutulur.

Dünyanın aparıcı dini konfessiyalarının nümayəndələrindən ibarət olan Direktorlar Şurasının sessiyasında iştirak edən QMİ sədri A.Paşazadə beynəlxalq və regional əhəmiyyətli mühüm hadisələrə dair müzakirələrə qatılacaq.

Səudiyyə Ərəbistanına səfəri çərçivəsində QMİ sədrinin Krallığın rəsmiləri ilə görüşləri nəzərdə tutulur.

# Müdafiə naziri hərbi təyinatlı obyektlərin açılışında iştirak edib

Bu ilin fəaliyyət planına uyğun olaraq hərbi hissələrdə tikinti-quruculuq işləri davam edir.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir, general-polkovnik Zakir Həsənov müasir tələblərə cavab verən növbəti hərbi obyektin açılışında iştirak edib.

Məruzə olunub ki, hərbi hissənin avtomobil parkında iriqabaritli hərbi maşınlar üçün saxlanclar, yanacaqdoldurma məntəqəsi və açıq test meydançası yaradılıb.

Müdafiə naziri parkın ərazisində avtomobillərin saxlanc boksları, yeni avadanlıqla təchiz edilmiş texniki nəzarət, qulluq, təmir məntəqələrində şəraitlə tanış olduqdan sonra müvafiq tapşırıqlarını verib.

# Azərbaycanın Xarici İşlər naziri Brüsseldə təşkil olunan Albaniya üçün Beynəlxalq Donorlar Konfransında iştirak edib



Fevralın 17-də Avropa İttifaqı Komissiyasının Prezidenti Ursula Von Der Leyenin dəvəti əsasında Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarovun rəhbərlik etdiyi nümayəndə heyəti Brüsseldə keçirilən Albaniya üçün Beynəlxalq Donorlar Konfransında iştirak edib.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, konfransda Avropa İttifaqı Komissiyasının Prezidenti, Albaniya Baş Naziri və Avropa İttifaqı Şurasının prezidenti açılış nitqi ilə çıxış edib, eləcə də bir çox dövlətlərin və beynəlxalq təşkilatların yüksəksəviyyəli nümayəndə heyətləri bəyanatlarını səsləndiriblər.

Konfransda çıxış edən nazir Elmar Məmmədyarov bildirib ki, Albaniya Azərbaycanın çox mühüm tərəfdaşıdır və bunun ən bariz nümunəsi Xəzər dənizi bölgəsini, xüsusilə də Azərbaycanı Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya ilə əlaqələndirən və İtaliyada başa çatan strateji “Cənub qaz dəhlizi”nin təşviq edilməsi üçün Albaniya Baş Naziri Edi Ramanın Bakıya çoxsaylı səfərləri və bu səfərlər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə keçirilmiş görüşləridir.

Nazir Elmar Məmmədyarov Albaniyada faciəvi zəlzələ baş verən zaman Azərbaycanın Albaniyaya humanitar yardım göstərən ilk ölkələr sırasında olduğunu və ölkəmizin Albaniyaya yarım milyon avro məbləğində yardım göstərdiyini qeyd edib. O, Albaniya hökumətinə və xalqına daha yarım milyon avro məbləğində yardımın göstəriləcəyi vədini konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Nazir Azərbaycanın müasir tarixində ehtiyacı olan xalqla həmrəy olmasının çox normal bir hal olduğunu bildirib və müstəqilliyinin bərpa edilməsinin ilk günlərindən etibarən xalqımızın üzləşdiyi qonşu dövlətin təcavüzkar siyasəti və hərbi münaqişə nəticəsində 1 milyondan çox insanımızın qaçqın və məcburi köçkünə çevrilməsi ilə çox əziyyət çəkdiyinə diqqəti cəlb edib.

Bu gün isə Azərbaycanın İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının İnkişafa Yardım Komitəsinin iştirakçısı olduğu və ölkəmiz tərəfindən dünyanın 100-dən çox ölkəsinə humanitar və inkişafa yardım göstərildiyi nazir Elmar Məmmədyarov tərəfindən qeyd olunub və bu yardımın gələcəkdə də davam etdiriləcəyindən əminlik ifadə edilib.

Qeyd etmək istərdik ki, Azərbaycan keçmiş sovet məkanındakı ölkələr arasında Albaniyanı çətin vəziyyətində dəstəkləyən yeganə ölkə olub.

# AÇG doqquzuncu platformasının yolunu gözləyir

“Azəri Mərkəzi Şərqi” adlanan bu qurğudan ilk neft 2023-cü ildə alınacaq

*Əvvəli 1-ci səh.*

“Azəri Mərkəzi Şərqi” platforması gündəlik 100 min barelədək neft hasil etmək gücündə layihələndirilib. İstismar müddəti ərzində qurğunun 300 milyon barelə qədər əlavə neft hasil edəcəyi gözlənilir. Layihə çərçivəsində ilk hasilatın 2023-cü ildə əldə ediləcəyi planlaşdırılır.

2019-cu ildə bu layihənin əsas tikinti-quraşdırma, dəniz və sualtı işləri üzrə müqavilələr bağlanıb və iyul ayında tikinti işlərinə başlanıb. İnşaat işləri ilin ikinci yarısında xeyli genişlənib.

Hazırda platformanın üst modulları və qazma qurğusunun tikintisi və quraşdırılması Bibiheybətdəki ATA (“AMEK-Tekfen-Azfen”) tikinti-quraşdırma sahəsində plan üzrə irəliləyir. Dayaq bloku və onun payalarının tikintisi isə Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda qrafiki qabaqlamaqla davam edir. Payaların bu ilin sonlarına yaxın dənizdə quraşdırılacağı nəzərdə tutulur. Platformanın yaşayış blokunun tikintisi isə İsveçdə aparılır. Burada da işlər qrafiki qabaqlayır. Artıq sualtı boruların örtüklənməsi üzrə sınaqlara başlanıb.

Xatırladaq ki, “Azəri Mərkəzi Şərqi” AÇG-nin 9-cu platforması olacaq. Hazırda yataqda 8 platforma fəaliyyət göstərir. Bunlardan 6-sı hasilat, 2-si isə emal, qazın kompressiyası, suvurma və texnoloji təchizat qurğusudur.

2019-cu ildə AÇG-dən sabit hasilat təhlükəsiz şəkildə davam edib. Burada ümumi hasilat gündə orta hesabla 535 min barel, il ərzində isə 195 milyon bareldən çox, yəni 26 milyon ton olub. Keçən il “Çıraq” platforması hər gün orta hesabla 41 min, “Mərkəzi Azəri” 134 min, “Qərbi Azəri” 121 min, “Şərqi Azəri” 89 min, “Dərinsulu Günəşli” 96 min və “Qərbi Çıraq” 54 min barel neft verib.

Hasil edilən karbohidrogenlər platformalardan sualtı xətlər vasitəsilə dünyanın ən böyük neft-qaz terminallarından olan Səngəçal terminalına ötürülür.

AÇG kompleksində ümumilikdə 125 neft hasilatı, 46 su injektor və 7 qaz injektor quyusu istismar olunur. Ötən il bu yataqlarda 11 yeni quyu qazılıb ki, onlardan 10-nu hasilat quyusudur.

İndi AÇG özünün 9-cu platformasının yolunu gözləyir. Tikinti işləri tamamlandıqdan sonra platformanın dənizdə quraşdırılması həyata keçiriləcək.

***Flora SADIQLI, “Azərbaycan”***

# İlham Əliyevin növbəti diplomatik qələbəsi xarici mətbuatda

## "The USA Tribune": "Münxendə söz dueli və onun qalib "revolveri"

ABŞ-ın "The USA Tribune" qəzetində siyasi icmalçı Robert Qorovitsin Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Dağlıq Qarabağ münaqişəsinin müzakirələrinə həsr olunmuş "Münxendə söz dueli və onun qalib "revolveri" sərlövhəli məqaləsi dərc olunub.




Müəllif yazır ki, tarix dərsliklərindən və Avropa ədəbiyyatından qarşı tərəflərin öz şərəf və ləyaqətini qorumaq məqsədilə keçirilən silahlı qarşıdurma - duellərin zəruriliyi hamıya məlumdur. Bir ekspozisiya forması kimi duel bir çox mədəniyyətlərdə, o cümlədən Amerika qitəsinin Vəhşi Qərbində də öz yerini tapıb. Müasir dünyada duel beynəlxalq münasibətlərdə təzahür edir, hərçənd özünü silahlı deyil, söz mübadiləsi formasında göstərir. Bu isə daha güclü bir amildir.

Söz dueli üçün müasir dünyada ən yaxşı meydan BMT-nin Təhlükəsizlik Şurası və Baş Assambleyası, Davos Forumu, Münxen Konfransı və ölkələrin liderlərinin öz mövqelərini və üstünlüklərini nümayiş etdirdikləri digər platformalardır. Münxen Təhlükəsizlik Konfransı son 60 ildə mütəmadi keçirilən beynəlxalq təhlükəsizlik siyasəti üzrə tədbirdir.

Bu il fevralın 14-16-da keçirilən Təhlükəsizlik Konfransı keçmiş Sovet İttifaqından olan icmalçılar üçün maraqlı oldu. Belə ki, təhlükəsizlik məsələləri, ələlxüsus postsovet məkanında uzun sürən münaqişələr diqqət mərkəzində idi. Konfransın kuluarlarında baş verən mühüm hadisələrdən biri də "Dağlıq Qarabağ münaqişəsinin həllində inkişaf" diskussiyası oldu. Ermənistan və Azərbaycanın liderləri Cənubi Qafqazda 30 ildir davam edən münaqişəni müzakirə etmək üçün səhnəyə çıxdılar.

Müəllif qeyd edir ki, iki ölkənin liderləri auditoriyaya Qarabağın tarixinə dair öz versiyalarını təqdim etdilər. O vurğulayır: "Erməni lider nala-mıxa döyürdü, artıq tükənmiş arqumentləri təkrar edirdi, ermənilərin guya Cənubi Qafqazın yerli sakinləri və Qarabağın tarixən Ermənistanın bir hissəsi olduğunu söyləyirdi".

Paşinyanın əsas arqumenti ondan ibarətdir ki, guya Dağlıq Qarabağ ilkin olaraq Qafqaz Bürosu tərəfindən 1921-ci ildə Ermənistana verilib, lakin bu qərar İosif Stalin tərəfindən Azərbaycanın xeyrinə ləğv edilib. Erməni lider iddia edir ki, guya Stalin Lenin və Atatürklə Qarabağın Azərbaycana verilməsi ilə bağlı sövdələşib. Müəllif vurğulayır ki, etnik ermənilərin çoxluq təşkil etdiyi Qafqaz Bürosunda həqiqətən Dağlıq Qarabağı əvvəlcə Ermənistana vermək istəyiblər, lakin bu ərazinin Ermənistandan daha çox Azərbaycana bağlı olduğunu nəzərə alaraq, 1921-ci il iyulun 5-də həmin qərar ləğv edilib. Faktiki olaraq, qərarın mətnində Qarabağ və Azərbaycana münasibətdə "saxlanılsın" sözü işlənilir: "Müsəlmanlar və ermənilər arasında sülhün zəruriliyini və dağlıq və aran Qarabağ arasında iqtisadi əlaqələri nəzərə alaraq, Dağlıq Qarabağ Azərbaycan SSR-in tərkibində saxlanılsın, ona muxtar vilayətin tərkibinə daxil edilən Şuşa şəhəri paytaxt olmaqla, geniş vilayət muxtariyyəti verilsin". Bu, o deməkdir ki, Qarabağ artıq Azərbaycanın bir hissəsi idi və Qafqaz Bürosu sadəcə onu Ermənistana verməyərək, Azərbaycanın hüdudları daxilində saxlamağa qərar verib.

Qorovits sonra qeyd edir ki, Paşinyan heç bir anlayışı olmadığı beynəlxalq hüquq barəsində mülahizələr yürütməyə başladı. Erməni lider bəyan etdi ki, əgər Azərbaycan Sovet İttifaqının ərazi bütövlüyünə hörmət etsəydi, o, müstəqil dövlət olmazdı. Əgər Azərbaycan bunu edibsə, onda Dağlıq Qarabağın öz müqəddəratını həll etməsinə də hörmətlə yanaşmalıdır, çünki erməni liderin fikrincə, Dağlıq Qarabağ erməniləri azərbaycanlıların da istifadə etdikləri hüququ həyata keçiriblər - SSRİ ilə vidalaşıblar. Lakin siyasi icmalçının vurğuladığına görə, erməni baş nazirin beynəlxalq hüquq sahəsində bilikləri o qədər azdır ki, o, Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkib hissəsi olduğunu və sovet Konstitusiyasına əsasən respublikanın tərkibindən çıxmaq, Dağlıq Qarabağın müstəqil və ya Ermənistanın tərkibində olması üçün hər bir addımın istər Azərbaycan SSR, istərsə də SSRİ Konstitusiyasına uyğun şəkildə həyata keçirilməsinin zəruriliyini başa düşmür. Lakin bu, baş vermədi. Belə ki, SSRİ və Azərbaycan SSR-in qanunverici orqanları Dağlıq Qarabağın Ermənistana verilməsini rədd etdilər.

Müəllif sonra yazır ki, Paşinyan BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi üzrə dörd qətnaməsini müzakirə edərkən uğursuz seçim edib. Erməni lider iddia edib ki, guya BMT TŞ dərhal və qeyd-şərtsiz atəşkəs rejiminin tətbiqini tələb edib, belə ki, Azərbaycan bu qaydaları pozub və ərazilərini itirib. Əslində isə, İlham Əliyevin də qeyd etdiyi kimi, BMT TŞ-nin 822, 853, 874 və 884 saylı qətnamələri Ermənistanın hərbi təcavüzü dayandırmasını və öz qoşunlarını işğal etdiyi Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarmasını, həmçinin bütün məcburi köçkünlərin öz torpaqlarına qayıtmasına şərait yaradılmasını tələb edib. Prezident Əliyev beynəlxalq ictimaiyyəti, xüsusən ATƏT-in Minsk qrupunu Ermənistana özünün qeyri-konstruktiv mövqeyindən imtina etmək üçün təzyiqi gücləndirməyə çağırıb.

Məqalədə o da qeyd olunur ki, Paşinyan işğal olunmuş Dağlıq Qarabağ ərazisində Ermənistanın yaratdığı oyuncaq rejimin danışıqlarda iştirakını arzuladığını bildirib. O, özünün bu təklifini hətta "mikroinqilab" adlandıraraq, onu auditoriyaya hansısa yenilik kimi təqdim edib. Əslində, erməni separatçılarını danışıqlar masası arxasına oturtmaq Ermənistanın son 20 ildə ardıcıl olaraq göstərdiyi səylərdir. Lakin Azərbaycan üçtərəfli formatı sadəcə ona görə rədd edir ki, bu formatın özü münaqişənin iki əsas tərəfinin (Ermənistan və Azərbaycan) formuluna söykənir və burada iki maraqlı tərəf - Dağlıq Qarabağın erməni və azərbaycanlı icması var. Qeyd olunur ki, rəsmi Yerevan tərəfindən Xankəndidə (Stepanakert) qurulmuş erməni hərbi rejiminin heç bir legitimliyi yoxdur, çünki onlar müharibə vaxtı Qarabağın azərbaycanlı icmasına qarşı etnik təmizləmə həyata keçiriblər.

Müəllif yazır ki, Paşinyan özü də bunu dərk etmədən təsdiq etdi ki, Ermənistanın hərbi qulluqçuları Azərbaycanın işğal olunmuş ərazilərində xidmət edirlər. O, açıq şəkildə bəyan etdi ki, oğlu Dağlıq Qarabağda hərbi xidmətdədir və bununla da erməni təbliğatının Qarabağ ermənilərinin "özünümüdafiə ordusu" ilə təhlükəsizliklərini təmin etdikləri barədə iddiaları ifşa edib.

Məqalənin sonunda Qorovits yazır: "Söz dueli Paşinyan üçün uğursuz başa çatdı, belə ki, o, Əliyevin bəyanatlarından ciddi "yaralar" və faktlara söykənən arqumentləri təqdim etmək bacarıqsızlığı ucbatından böyük zərbə aldı".

## "Vestnik Kavkaza"nın erməni jurnalisti Paşinyanın Njde barəsində ritorikası haqqında

Nikol Paşinyanın Almaniyaya səfəri onun Dağlıq Qarabağın tanınmamış statusunu təsdiq etmək səylərinə dayanan işğalçılıq ritorikasından kənara çıxmağa hazır olmadığını növbəti dəfə nümayiş etdirdi. Bu, hələ Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşdən əvvəl, Fridrix Ebert Fondunda xarici jurnalistlərlə söhbət əsnasında aydın oldu. Həmin görüşdə Ermənistanın baş naziri Dağlıq Qarabağ münaqişəsinin nizamlanmaması səbəbləri və ölkədə nasistlərin əlaltısı olan Qaregin Njdenin qəhrəman kimi qələmə verilməsi barədə bir sıra etiraflar etdi.

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiyanın "Vestnik Kavkaza" İnformasiya Agentliyinin jurnalisti Mamikon Babayan yazır. Məqalədə vurğulanır ki, Paşinyana sual verən jurnalistlər hazırkı baş nazirin 1988-1992-ci illərdə etnomilliyyətçi problemlərin eskalasiya dövründə erməni separatizmi ilə bağlı olmadığını qeyd ediblər. Həmçinin Ermənistanın bundan əvvəlki iki prezidentinin, özlərinin məhz "döyüş xidmətləri" sayəsində respublikanın müasir tarixinə düşən Robert Koçaryan və Serj Sarkisyanın fəal iştirak etdikləri Qarabağ müharibəsi dövründə baş verən hadisələrə Paşinyanın aidiyyəti olmadığı nəzərə çarpdırılır.

Müəllif vurğulayır ki, Paşinyandan sülhməramlı prosesə yeni siyasi doktrinanın əlavə edilməsini gözləyirdilər. Lakin jurnalistlərin suallarına cavab verərkən erməni baş nazir Azərbaycan tərəfinin ritorikasında boşluqlar axtarmağa üstünlük verdi.

"Qaregin Njdenin qəhrəman kimi qələmə verilməsi barədə suala erməni baş nazirin cavabı mərhələli danışıqlara nail olunması perspektivini tamamilə alt-üst etdi. Paşinyan Njdenin hitlerçilərlə əməkdaşlığı faktının əhəmiyyətini bilərəkdən əksildərək onun Birinci Dünya müharibəsi dövründəki fəaliyyətini qeyd etməyə üstünlük verdi. Paşinyan nasistlərlə əməkdaşlığı Azərbaycan mühacirətinin tanınmış xadimi Məhəmməd Əmin Rəsulzadəyə aid etdi. Bütövlükdə, erməni baş nazirin Qaregin Njdenin cinayətkarlığına münasibətdə ritorikası elə fikir yaratdı ki, nasistlərlə əlbirlik indiki Ermənistan üçün cinayət hesab edilmir", - deyə M.Babayan yazır.

## *Ermənistan müxalifəti Paşinyan haqqında:* "Siz patoloji yalançısınız, yoxsa fərasətsiz qorxaq?"

Ermənistanın Respublika Partiyası sədrinin müavini Armen Aşotyan öz "Facebook" səhifəsində yazıb: "Baş aça bilmirəm, siz daha çox patoloji yalançısınız, yoxsa fərasətsiz qorxaq?"

AZƏRTAC xəbər verir ki, Aşotyan belə emosional, lakin həqiqətdən heç də uzaq olmayan yazını Ermənistanın baş naziri Nikol Paşinyanın administrasiyasının saxtakarlıqlarını ifşa etdiyinə görə yazıb.

O yazır: "Deməli, Nikol Paşinyanın "Facebook" səhifəsində Merkel ilə Paşinyan arasında dünənki görüşün erməni dilinə tərcümədə yayımlanan videoyazısına baxıram. Sonra Almaniya Kanslerinin rəsmi səhifəsinə daxil oluram və görüşün videoyazısını tərcüməsiz dinləyirəm və nə aydın olur? Angela Merkel öz çıxışında Ermənistanda məhkəmə-hüquq islahatları kontekstində Venesiya Komissiyasını xatırladır, halbuki erməni dilinə tərcümədə bu barədə BİR KƏLMƏ DƏ YOXDUR. Ermənistanın baş nazirinin rəsmi saytında yerləşdirilmiş press-relizdə də bu hissə YOXDUR. Videoya baxın və əmin olun: 00:45-00:50".

Ermənistanın "Antifeyk" nəşri yazır ki, bu, rəsmi çıxışların və bəyanatların Ermənistanın baş nazirinin aparatı tərəfindən təhrif olunduğu ilk hadisə deyil.

Yazıda deyilir: "Ermənistan Respublikasının Xarici İşlər Nazirliyi hələ 2019-cu ilin dekabrında xarici siyasət idarəsinin başçısı Zöhrab Mnatsakanyanın nitqinin erməni dilinə tərcüməsinə çox böyük əhəmiyyət kəsb edən, lakin nazirin ingilis dilində nitqinin ilkin mətnində olmayan cümlə və frazaları əlavə edib (bax: **https://antifake.am/ru/news/1209**)".

Əslinə baxılırsa, bütün bunlardan sonra Ermənistanda saxtalaşdırmalara həvəsin haradan gəldiyinə təəccüblənməyə dəyməz! Əgər dünənin hadisələri belə insafsızcasına saxtalaşdırılırsa, onda daha "çar Tiqran dövrü" barədə nə demək olar? Demək olar ki, o dövrdə cəmi "iki millət" - "ermənilər"... və Azərbaycan Prezidentinin dili topuq çalan "tarixçi" Paşinyana lap yerində verdiyi ipucuya əsasən, "elə yenə də ermənilər" olub.

Heç nəyə təəccüblənmək lazım deyil. Hazırda acınacaqlı vəziyyətdə olan və bu kompleksdən əziyyət çəkən bir xalqın əslində heç bir gələcəyi yoxdur, keçmişi də yoxdur, yəni bu keçmişi uydurmaq lazımdır. Bax onda köməyə baş nazirin aparatında çalışan əməkdaşların üslubunda məharətlə və açıq şəkildə "Made in Armenia" leyblı ilə saxtalaşdırılmış özgə hökmdarlar, özgəsinin irsi, özgəsinin mədəniyyəti və özgəsinin tarixi gəlir.

## "İlham Əliyev Paşinyanı küncə sıxışdırdı"

### Türkiyə KİV Azərbaycan Prezidentinin Ermənistanın baş naziri üzərində qələbəsini əsas manşet xəbəri kimi verdi




**Tarixin sınaqlarından daim üzüağ çıxmış Azərbaycan-Türkiyə münasibətləri ötən dövr ərzində daha da möhkəmlənərək ölkələr arasında strateji bağların yeni səviyyəyə yüksəlməsini təmin edib. Müasir dünya reallığında hər iki ölkənin ətrafında gedən proseslərə vahid prizmadan yanaşmaları, xüsusən ərazi bütövlüyü kimi həssas məsələlərdə bir-birlərinin maraqlarını müdafiə etmələri isə daha mühüm əhəmiyyət kəsb edir. Hər iki dövlət istər regionda, istər dünyada, istərsə də ölkə daxillərində cərəyan edən hadisələrə kifayət qədər həssaslıqla yanaşır.**

Bu günlərdə Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı paneldə keçirilən müzakirələr qardaş ölkənin ictimaiyyətinin əsas diqqət mərkəzində yer alıb. Mövzu türk KİV-ində nəzərini çəkib və geniş işıqlandırılıb. Prezident İlham Əliyevin qarşısında Paşinyanın böyük uğursuzluğa düçar olduğunu qabarıq şəkildə bildirən onlarca teleşirkət, yüzlərlə qəzet və internet portalı bununla bağlı xəbərlər paylaşıb.

"Anadolu Agentliyi" "Tarixdə ilk dəfə Azərbaycan və Ermənistan rəhbərləri ictimaiyyət qarşısında müzakirələr apardılar" başlıqlı xəbərində yazır ki, görüş Ermənistan üçün daha bir diplomatik zərbə oldu. Prezident İlham Əliyevin "Ermənistan rəhbərləri ilə danışıqlar təcrübəmdən çıxış edərək deyə bilərəm ki, mənim cənab Paşinyanın iki sələfi ilə də danışıqları aparmaq imkanım olub. Hər zaman danışıqların ən həlledici məqamında söhbəti davam etdirməmək üçün müəyyən bəhanə tapıblar" fikirlərinin yer aldığı xəbərdə qeyd olunur ki, Azərbaycan rəhbərinin qarşısında Paşinyanın dili topuq vururdu.

"Milliyet" qəzetində Azərbaycan Prezidentinin "Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələrin tələbləri hələ də yerinə yetirilməyib. Ona görə də sülh danışıqları nəticəsində əldə ediləcək istənilən həll yolu Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün saxlanılmasını təmin etməlidir" fikri öz əksini tapıb.

"Haber Global" kanalı isə "Azərbaycan Prezidenti İlham Əliyevdən Ermənistanın baş naziri Nikol Paşinyana tarixi şillə" adlı süjet hazırlayıb. Süjetdə Azərbaycan Prezidentinin Xocalı soyqırımı, Ermənistanın Dağlıq Qarabağı işğalı və ermənilərin işğal etdikləri ərazilərdə etnik təmizləmə aparmaları ilə bağlı fikirləri yer alıb. Bildirilir ki, beynəlxalq miqyasda Ermənistanın işğal siyasəti davamlı olaraq pislənir, onun təcavüzkarlığına qarşı çıxanların sayı artır. Bununla bağlı müxtəlif beynəlxalq qurumlar tərəfindən çoxsaylı qərarlar, qətnamələr, eləcə də digər sənədlər qəbul edilib.

"TRT Haber" kanalda yayımlanan xəbərdə bildirilib ki, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan Münxen Təhlükəsizlik Konfransı çərçivəsində təşkil edilən paneldə Dağlıq Qarabağ mövzusundan danışıblar. İlham Əliyevin fikirləri qarşısında Paşinyanın aciz olduğunu diqqətə çatdıran kanal Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz bir parçası olduğunu və Azərbaycanın ərazi bütövlüyünün beynəlxalq cəmiyyət tərəfindən tanındığını xatırladıb.

"NTV" kanalı da Münxen Təhlükəsizlik Konfransında keçirilən müzakirəni tamaşaçılara "Tarixdə ilk dəfə Azərbaycan və Ermənistan rəhbərliyi ictimaiyyət qarşısında müzakirələr apardı" başlıqlı xəbər təqdim edib. İlham Əliyevin "Biz təcavüzkarla danışıqlar aparırıq. Biz Dağlıq Qarabağla danışmağa hazır olarıq ki, Ermənistan həmin qeyri-qanuni rejimi maliyyələşdirməsini dayandırsın, bütün hərbi qoşunları Dağlıq Qarabağdan çıxarsın və bizim əraziləri tamamilə tərk etsin. Sonra isə bizim həmin insanlarla danışıq aparmağa arqumentimiz olacaq" fikirlərinin yer aldığı xəbərdə bu gün Azərbaycan torpaqlarının 20 faizinin Ermənistanın işğalı altında olduğu, 1 milyondan çox azərbaycanlının torpaqlarını tərk etmək məcburiyyətində qaldığı və Azərbaycan xalqına qarşı etnik təmizləmə aparıldığı diqqətə çatdırılıb.

"Sabah" qəzeti də "Tarixdə bir ilk. İlham Əliyev Paşinyanı küncə sıxışdırdı" başlıqlı xəbər təqdim edib. Bildirilir ki, Azərbaycan Prezidentinin idarəçiliyi dönəmində daha da güclənən Azərbaycan buna paralel olaraq Ermənistanı olduqca zəif bir dövlətə çevirməyi, dünya erməniliyinə isə böyük zərbələr vurmağı bacarıb. Xəbərdə, həmçinin Ermənistan baş nazirinin ziddiyyətli, bir-birini təkzib edən ifadələrinə də yer verilib. Bura, baş nazirin işğal olunmuş ərazilərdə Ermənistanın yox, Dağlıq Qarabağ ordusunun mövcud olması, lakin onun oğlunun bu bölgədə hərbi xidmət keçməsi barədə fikirləri də daxildir.

Bundan başqa, "sanalbahis.com", "karadenizgazete.com", "tevhidhaber.com", "msn.com" xəbər agentlikləri, "CNN Türk", "Ahaber", "Habertürk" kanalları, "Akşam", "Türkiye" və digər qəzetlər "İlham Əliyevdən tarixi şillə", "İlham Əliyev Paşinyanı faktlarla susdurdu" və s. başlıqlı xəbərlərlə Azərbaycan Prezidentinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı N.Paşinyanı fakt qarşısında qoyan fikir və mülahizələri türkdilli oxuculara çatdırılıb. Həmçinin KİV Prezident İlham Əliyevin sadaladığı təcavüzkar Ermənistanın işğalçılıq siyasətini ifşa edən digər faktlardan - Azərbaycan ərazisinin iyirmi faizinin işğalda saxlanılması, bir milyondan çox azərbaycanlının öz yurdundan didərgin düşməsi, Xocalı soyqırımı və s. bəhs edib.

***Elçin CƏFƏROV, "Azərbaycan"***




# Ağdamda heyvandarlıq sahəsində uğurlu nəticələr qazanılıb

Cəbhə bölgəsində yerləşən Ağdam rayonunda kənd təsərrüfatının aparıcı sahələrindən olan heyvandarlıq stabil inkişaf edir. Əvvəlki illərdə olduğu kimi, 2019-cu ildə də heyvandarlıq sahəsində uğurlu nəticələr əldə olunub. Mal-qaranın cins tərkibi daha da yaxşılaşıb, heyvandarlıq məhsulları istehsalında nəzərəçarpacaq artım qeydə alınıb.

Rayon statistika idarəsinə istinadən AZƏRTAC xəbər verir ki, əvvəlki ilin eyni dövrü ilə müqayisədə rayonda iribuynuzlu mal-qaranın baş sayı 1,6 faiz artaraq 42 min 297 başa, quşlar (bütün növ üzrə) 0,5 faiz artaraq 250 min 590 başa, arı ailələri 1,1 faiz artaraq 6118 arı ailəsinə, atların baş sayı 13,4 faiz artaraq 356 başa çatıb. 2019-cu ildə təsərrüfatlarda 4733,8 ton ət, 37 min 873 ton süd, 15 milyon 19 min ədəd yumurta, 204 ton yun istehsal edilib. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə ət istehsalı 5,9 faiz, süd istehsalı 5,6 faiz, yumurta istehsalı 13,7 faiz, yun istehsalı 4,9 faiz artıb.

Heyvandarlıq məhsullarının istehsalının artmasında heyvanların baş sayının artımı ilə yanaşı, cins tərkibinin yaxşılaşdırılması da mühüm rol oynayır. Rayonda heyvandarlıq məhsulları istehsalının intensiv artmasına zəmin yaradan cins maldarlığın inkişafı üçün heyvanların süni mayalanması uğurla həyata keçirilir. 2019-cu ildə 3873 baş inək və düyə süni yolla mayalandırılıb, 2138 baş cins tərkibi yaxşılaşdırılmış buzov alınıb. Mayalanma zamanı əsasən "Holşteyn-friz" və "Simmental" cinslərindən olan buğaların toxumları istifadə edilir.

# Abşeron rayonunun kənd yolları təmir olunur

Abşeron rayonunun Saray, Ceyranbatan, Mehdiabad, Qobu qəsəbələrinin və Masazır kəndinin ərazilərində ümumi uzunluğu 29,2 kilometr olan 17 küçədə təmir işlərinin həyata keçirilməsi nəzərdə tutulur ki, artıq bu istiqamətdə işlərə başlanılıb. Ümumilikdə təmir işlərinin əhatə edəcəyi sahə 250 min kvadratmetrdən çoxdur.

Təmir işləri, əsasən, uzun müddət əsaslı şəkildə təmir olunmadan istismar olunan, yol örtüyünün vəziyyəti qənaətbəxş olmayan, həmçinin torpaq əsaslı və çınqıl örtüklü küçə və yollarda aparılır. Təmiri aparılan və nəzərdə tutulmuş küçələr Mehdiabad qəsəbəsi üzrə Qara Qarayev, Cəfər Cabbarlı, Əhməd Cavad və Çingiz Mustafayev, Qobu qəsəbəsi üzrə Mirzə Ələkbər Sabir, Qara Qarayev, Aşur Həsənbalayev, Çingiz Mustafayev və Sona Salmanova, Ceyranbatan qəsəbəsi üzrə Heydər Əliyev, Masazır kəndi üzrə Qaçaq Nəbi, Hacı Zeynalabdin Tağıyev, Faiq Həsənov, Nazim Əsədov, Akim Abbasov və Şıxəli Qurbanov küçələri, Saray qəsəbəsi üzrə isə Mikayıl Müşfiq küçəsi və Heydər Əliyev prospektidir.

Aparılan təmir-tikinti işləri çərçivəsində küçələr boyu zəruri olan yerlərdə köhnə örtük sökülür və yararsız qrunt qazılaraq çıxarılır, əvəzinə yararlı material tökülərək kipləşdirilir. Daha sonra yeni asfalt-beton örtüyü döşənir. Qeyd olunan ərazilərdə təmir işlərinin həcmi ilkin olaraq ayrılmış vəsait hesabına aparılır. Növbəti mərhələlərdə ayrılan vəsaitə uyğun olaraq, sözügedən qəsəbələr üzrə təmirə ehtiyacı olan digər küçə və yollarda da təmir işlərinin aparılması planlaşdırılır.

# Aqrar sektorda istehsalın artımı emal sənayesinin inkişafını şərtləndirir



Azərbaycanda dövlətin aqrar sektorun inkişafına yanaşması mükəmməldir və müasir dünya təcrübəsi ilə vəhdət təşkil edir. İki gün əvvəl Kürdəmir rayonunda "Qlobal Aqro" MMC-nin aqroparkının açılışı və dövlət başçısının bu tədbirdə şəxsən iştirak etməsi bunu bir daha təsdiq edir.

Söz düşmüşkən bildirək ki, "Qlobal Aqro" MMC-nin rayonun Karrar qəsəbəsi və Pirli kəndi ərazisində yerləşən aqroparkı iki min hektar sahəni əhatə edir. Ümumi dəyəri 30 milyon manat olan müəssisənin yaradılmasına 1 milyon manat güzəştli kredit verilib, 8,1 milyon manat dövlət əsaslı vəsait qoyulub. O cümlədən ərazidə aparılan meliorasiya işlərinə 7,9 milyon, elektrik və qaz təminatının hər birinə 100 min manat vəsait sərf edilib. Müəssisədə ölkəmizlə yanaşı, Türkiyə və Belçika şirkətlərinin istehsalı olan müasir avadanlıqlar quraşdırılıb, 60 hektar sahənin suvarılması üçün tamburlu suvarma qurğusu, 27 texnika və aqreqat alınıb. Aqroparkda 18 min tonluq saxlama anbarı və gücü saatda 10 ton olan toxum çeşidləmə - qablaşdırma sahəsi, ofis və laboratoriya binaları, texnika üçün talvar tikilib.

Rəqəmlərə müraciət etdikdə də görülən işlərin, aqrar sektorda islahatların miqyasını və məzmununu aydın dərk etmək mümkündür. Hazırda ölkənin 33 rayonu üzrə 262 min hektar ərazidə ümumi dəyəri 2,4 milyard manat olan 51 aqropark və iri fermer təsərrüfatının yaradılması üzrə işlər aparılır. 153 min hektar ərazidə ümumi dəyəri 1,1 milyard manat dövlət dəstəyi göstərilmiş 33 aqropark və iri fermer təsərrüfatı isə birinci mərhələ üzrə fəaliyyətə başlayıb. Həmin aqropark və iri fermer təsərrüfatlarından 16-sı 2019-cu ildə fəaliyyətə başlamışdır.

Prezident İlham Əliyev 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə iqtisadiyyatın real sektorunun inkişafında kənd təsərrüfatının rolunu xüsusi qeyd etmiş, növbəti dövrdə kənd təsərrüfatı məhsullarının emalına böyük diqqət göstərilməsinin zəruriliyini vurğulamışdır. Qeyd olunmuşdur ki, kənd təsərrüfatı məhsullarının istehsalının artması, aqrar sektorda ənənəvi sahələrin sürətlə bərpa edilərək inkişaf etməsi emal sənayesini də stimullaşdırır.

Məlumdur ki, ölkədə son illər kənd təsərrüfatı məhsullarını emal edən yeni zavod və müəssisələrin şəbəkəsi yaradılmış, konservləşdirilmiş məhsulların ixracında müsbət tendensiya formalaşmışdır. Lakin dövlət başçısı sonuncu müşavirədə bu məsələyə bir qədər tənqidi mövqe nümayiş etdirmişdir. Prezident keçən il meyvə-tərəvəz istehsalının artımı fonunda mövcud emal müəssisələrinin istehsal gücünün yetərincə olmadığını bildirmiş, özəl sektorun bu işlərdə öz vəsaiti hesabına daha fəal iştirak etməsinin vacibliyini dilə gətirmişdir. Buna misal olaraq tütün istehsalının artmasına, ölkədə siqaret fabrikinin yenidən qurulmasına baxmayaraq, siqareti tütün istehsal etməyən ölkələrdən idxal etməyimizi paradoks hal kimi dəyərləndirmişdir: "Onlar tütünü bizdən alır, emal edir, siqaret buraxır, bizə satır. Ona görə buna son qoyulmalıdır".

Bu baxımdan yanaşanda baramaçılığın inkişafı xüsusi yanaşma tələb edir. Məlumdur ki, bu gün baramaçılıq ölkənin aqrar sektorunda inkişaf tempinə görə rekord qıran ənənəvi sahələrdən birinə çevrilmişdir. Əlbəttə, heç bir uğur asan əldə edilmir. Azərbaycan kümçülərinin son 5 ildə qazandıqları nailiyyətlər müasir dünya təcrübəsinin tətbiqinin, dövlətin ciddi maliyyə dəstəyinin və kümçülərə ayrılan xüsusi diqqətin nəticəsidir.

Baramaçılıq isə dünyada xüsusi imici, bənzərsiz keyfiyyətləri ilə seçilən sahədir. Xalqımız əsrlər boyu ipək istehsal etmiş, onun şöhrətini göylərə qaldırmışdır. İpək məhsullar milli geyimlərimizin, bayramlarımızın və toylarımızın bəzəyi olmuşdur. Digər tərəfdən, ipək dünyada ən təmiz ekoloji məhsul sayılır, min hektarlarla çəkilliklərin - tut bağlarının salınması, tingçiliyin inkişafı ekoloji balansı qoruyur, yaşıllıqları artırır. Elə ona görə də ölkəmizə milyonlarla tut tingi gətirilərək həm də yeni yaşıllıqların salınmasına, təbii landşaftın qorunmasına ciddi dəstək verilir. Bunlardan əlavə, barama qurdlarının inkubasiyası, yemlənməsi və yetişdirilməsi mərhələlərində herbisidlərin və pestisidlərin tətbiqi sıfır səviyyəsində olur. Yəni bu proses başdan-ayağa ekoloji cəhətdən tam təhlükəsizdir. Eyni zamanda minlərlə insan iş yerləri ilə təmin edilir.

Bütünlükdə ötən il aqrar sahədə həyata keçirilən islahatlar və görülmüş tədbirlər nəticəsində kənd təsərrüfatı məhsullarının istehsalında əsaslı artım əldə edilmiş, bazarda azad və rəqabətli şərait formalaşmışdır. Kənd Təsərrüfatı Nazirliyi bütün rayonlarda Dövlət Aqrar İnkişaf mərkəzləri yaratmışdır. Fermerlərə bu gün "Bir pəncərə"də 60-a yaxın xidmət göstərilir, subsidiyalar elektron kənd təsərrüfatı sistemi üzərindən verilir. Söz düşmüşkən qeyd edək ki, bu günə kimi elektron kənd təsərrüfatı sistemində 449 min fermer qeydiyyatdan keçmişdir. Ümumiyyətlə, cari il elektron kənd təsərrüfatının tam tətbiqi başa çatdırılacaqdır. Bunlardan əlavə, "Aqrar sığorta haqqında" qanun təsdiqlənmiş, Aqrar Sığorta Fondu yaradılmış və fermerlərin kiçikhəcmli kreditlərə çıxışının həlli yolları müəyyən edilmişdir.

Emal məsələsinə gəldikdə, bu sahənin inkişafı ilə bağlı dövlət başçısının tapşırığına əsasən hazırda İqtisadiyyat və Kənd Təsərrüfatı nazirlikləri birgə iş aparır və tezliklə təkliflər paketi dövlət başçısına təqdim ediləcək.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Yaşıl İqlim Fondu ilə Əməkdaşlığa Hazırlıq Proqramı müzakirə edilib

Aqrar Elm və İnnovasiya Mərkəzində Yaşıl İqlim Fondu ilə Əməkdaşlığa Hazırlıq Proqramının müzakirəsi keçirilib. Tədbirdə mərkəzin rəhbərliyi və əməkdaşları, fondun aralarında Türkiyədən gəlmiş mütəxəssislər də olan ekspertlər qrupunun üzvləri iştirak ediblər.

Məlumat verilib ki, 2017-ci ildə Paris Sazişinə qoşulmuş Azərbaycan milli öhdəlik kimi dünya iqlim dəyişikliyi üzrə 2030-cu ilə qədər istixana effekti yaradan qaz emissiyası səviyyəsini 35 faiz azaltmağa nail olmalıdır. Bu məqsədlə Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı Yaşıl İqlim Fondu ilə birgə təhlili məlumat bazalarının yaradılması, praktiki texnoloji həll yollarının tapılması və ölkə üzrə milli proqramın hazırlanmasını təmin etməlidirlər.

Tədbirdə çıxış edən Aqrar Elm və İnnovasiya Mərkəzinin direktoru İmran Cümşüdov məlumat verib ki, son illər elmi-tədqiqat işləri təbii resursların qorunması, resursqoruyucu texnologiyaların tətbiq edilməsi, stres faktorlarına dözümlü sort və tinglərin, heyvan cinslərinin yaradılması istiqamətinə yönəldilib. Hazırlanacaq Milli Proqramda Kənd Təsərrüfatı Nazirliyinin bu istiqamətdə yeni yanaşması öz əksini tapacaq. Türkiyəli mütəxəssis Çağlar Başsüllü isə Azərbaycanda müxtəlif bölgələrdə meşə və yaşıllıq zolaqlarının salınması, havada karbon qazı yaradan tullantıların emal edilərək orqanik gübrə istehsalı sahələrinin yaradılmasının vacib olduğunu bildirib.

Müzakirədə işçi qruplarının mütəmadi görüşlərinin təşkili, Milli Proqramın hazırlanması üzrə təkliflərin formalaşdırılması qərara alınıb.

# Ötən il Şəkidə 113 tütünqurutma kamerası quraşdırılıb

"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda Şəki rayonu üzrə nəzərdə tutulan tədbirlərin icrası ilə əlaqədar rayonun tütünqurutma kompleksinin genişləndirilməsi məqsədilə 2019-cu ildə Şəki rayonunun kəndlərində əlavə olaraq 113 ədəd tütünqurutma kamerası quraşdırılıb. Beləliklə, rayonda mövcud olan tütünqurutma kameralarının sayı 169-a çatdırılıb.

Bu barədə AZƏRTAC xəbər verir ki, kameraların 30-u "Azərtütün" MMC-nin rayonda fəaliyyət göstərən tütün istehsalı və emalı məntəqəsinin ərazisində quraşdırılıb. Beləliklə, məntəqədə olan kameraların sayı 86-ya çatdırılıb. Ötən il şəkili fermerlər bu emal məntəqəsinə 5485 ton "Virciniya botaniki" növlü yaşıl tütün kütləsi təhvil veriblər. Mövsüm ərzində emal məntəqəsində 980 ton quru tütün istehsal olunub.

Daha 23 tütünqurutma kamerası yerli sahibkar Emin İsayev tərəfindən Aşağı Layısqı kəndində quraşdırılaraq fermerlərin istifadəsinə verilib. Aşağı Göynük kəndinin ərazisində quraşdırılmış 60 ədəd tütünqurutma kamerası isə builki mövsümdən etibarən fermerlərdən yaşıl tütün qəbul edəcək.

Tütünqurutma kameralarının quraşdırılması tütün istehsalçılarının ağır əl əməyini azaltmaqla yanaşı, tütün əkinlərinin genişləndirilməsinə və məhsul istehsalının artmasına da təkan verəcək.

Mütəxəssis sözü

# Bruselyozun diaqnostikasına dair yeni üsula beynəlxalq patent alınmışdır

Bruselyoz sosioloji xəstəlik olub, heyvandarlıq məhsulları ilə insana keçir, yəni infeksiya mənbəyi xəstə heyvanlardır. Odur ki, xəstə heyvanlara düzgün diaqnozun qoyulması, onların vaxtında aşkar edilib sürüdən təcrid edilməsi və məcburi kəsimə göndərilməsi bruselyozla mübarizədə ən mühüm məsələdir.


Foto A.MƏMMƏDOVUNDUR

İnsanlardan fərqli olaraq, heyvanlarda bruselyoza qarşı səmərəli müalicə üsulu olmadığı üçün xəstə heyvanların məcburi kəsimindən heyvan sahibinə hər heyvanın faktiki dəyərinin 50 faizindən çox ziyan dəyir. Hər il profilaktika məqsədilə heyvanlardan müayinə üçün qan və süd nümunələri seroloji üsullardan Çəhrayı benqal sınağı (ÇBS), Aqqlütinasiya reaksiyası (AR), Komplementin birləşmə reaksiyası (KBR) və Süd həlqə reaksiyası ilə laboratoriyalarda yoxlanılır. Bu reaksiyaların nəticələri müsbət olduğu halda reaksiya müsbət və heyvan bruselyoz hesab edilməklə məcburi kəsimə göndərilir. Hər il dünyada minlərlə insana mövcud spesifik anticismlərin axtarılmasına əsaslanan seroloji üsullarla bruselyoz diaqnozu qoyularaq müalicəyə cəlb olunur, milyonlarla iri və xırdabuynuzlu heyvanlara həmin üsullarla bruselyoz diaqnozu qoyularaq çıxdaş edilir.

Elmi araşdırmalar zamanı məlum olmuşdur ki, bruselyoz antigeninə qarşı 5-ci gün, zəiflədilmiş bruselyoz vaksinlərinə qarşı 15-ci gün, virulentli brusellalara qarşı eksperimental olaraq yoluxdurulmuş hind donuzu və ada dovşanları üzərində spesifik anticismlər 25 faizə qədər heyvanlarda 30-cu gün, qalan 75 faizdə isə 135 günə qədər mövcud seroloji reaksiyaların nəticələri mənfi, bakterioloji müayinələrin nəticələri isə müsbət olmuşdur. Deməli, brusellaların virulentliyi artdıqca spesifik anticismlərin əmələ gəlmə müddəti uzanır. Bu da nəticədə brusellaları yayan heyvanların mövcud spesifik anticismlərin axtarılmasına əsaslanan seroloji üsullarla aşkar edilə bilmədiyindən ifrazatları və məhsulları ilə heyvan və insanların yoluxmasına səbəb olur.

Bruselyozun törədiciləri somatik antigendən və hialironidaza fermentindən ibarətdir. Brusellaya xəstəlik törətmə qabiliyyəti verən onun fermentidir. Spesifik anticismlərin əmələ gəlməsinə səbəb isə brusellanın somatik antigenidir. Antigen ayrılıqda çoxalmaq və ya xəstəlik törətmək qabiliyyətinə malik deyil. Fermentlər 43 dərəcə C-dən yuxarı temperaturlarda parçalanır. Alınmış nəticənin komissiyon yoxlanılması zamanı təsdiq edilmişdir ki, bruselyozun somatik antigeni 3 saat qaynadıldıqda belə, spesifik anticism əmələ gətirmə qabiliyyətini itirmir. Bruselyozlu heyvanların əti konservasiya, süd məhsulları isə pasterizasiya edilir. Xəstəliyin kəskin bala salma dövründə seroloji reaksiyalarla aşkar edilə bilməyən, brusella daşıyıcısı olan heyvanın bişirilmiş əti və pasterizə edilmiş südü ilə somatik bruselyoz antigeni insan orqanizminə düşdükdə 7-10 gün ərzində spesifik anticismlərin əmələ gəlməsinə səbəb olur. Həmin insanın Rayt, Heddelson seroloji müayinə metodları ilə bruselyoza tutulması təsdiqlənir. Bu, insanların bruselyoz əleyhinə bakteriosid kimyəvi preparatlarla müalicəyə cəlb olunması və həyat üçün vacib olan orqanların funksiya pozulmaları ilə nəticələnir.

Apardığımız tədqiqatlar zamanı, həmçinin məlum olmuşdur ki, bruselyoz antigeni ilə spesifik antitel arasında gedən reaksiya yapışaraq çökmə deyil, bakteriolizisdir. Misal üçün, Aqqlütinasiya reaksiyasının diaqnostik titr göstəricilərində sınaq şüşəsində əlavə olunmuş vahid bruselyoz antigenini spesifik anticismlər tam (lizis) əridir, həmin çöküntü ilə bioloji sınağın nəticəsi Çəhrayı Benqal Sınağı ilə mənfi olur. Diaqnostik titrdən sonrakı titrlərdə isə mixbərdə vahid bruselyoz antigeni lizis olmadığından bioloji sınaq zamanı spesifik anticismlərin əmələ gəlməsinə səbəb olur. İnsanlarda diaqnoz qoyulan zaman bruselyoz antigeninin bu xüsusiyyəti mütləq nəzərə alınmalıdır. Bu proses in vivoda getdiyindən həmin orqanizmin nəticədə brusellalardan təmizlənməsinə səbəb olur ki, həmin şəxslər başqa insanları yoluxdura bilmir və "bioloji dalan" adlandırılır. Həmçinin kütləvi müayinə zamanı seroloji Aqqlütinasiya reaksiyası 2 durultmada qoyulur ki, bu da qarışıqda təbii immunitet göstəriciləri olan orqanizmlərin, vaksinasiya olunmuş heyvanların bruselyoz adı ilə çıxdaş edilməsinə gətirib çıxarır.

Eyni zamanda komissiya ilə birgə yoxlamaların nəticəsində seroloji üsulların nəticələrini bakterioloji, bioloji və Zəncirvari polimeraza reaksiya və təklif etdiyimiz yeni, şərti adlandırılan "ABNUREL" Triada reaksiyası da təsdiq etməmişdir. Spesifik anticismlərin nəticələrinə görə heyvanların bruselyoz adı ilə məcburi kəsimə göndərilməsini, insanların antibakterisid kimyəvi preparatlarla bruselyoza görə müalicəyə cəlb edliməsini və virulentli mikrobları yayan orqanizmlərin mövcud seroloji üsullarla aşkar edilməməsini nəzərə alıb, müəlliflər spesifik anticismlərin axtarılmasına əsaslanan seroloji üsulları yalnız immun fonun təyin edilməsi üçün, bruselyozun diaqnostikasında müəlliflər tərəfindən yeni müayinə üsulu tövsiyə edilir. Bu üsula və kompanenti olan 3 resept AF1 və AF3 qida reseptlərinə Beynəlxalq və Avrasiya patenti alınmışdır (https://patentscope.wipo.int/search/ru/detail.jsf).

Hazırda yeni üsulun baytarlıq praktikasında tətbiq edilməsi barədə AMEA-nın Zoologiya İnstitutu tərəfindən müsbət rəy də verilmişdir. İnanırıq ki, yeni üsul baytarlıq praktikasında tətbiq edilərsə, dəyən ziyan minumuma endirilməklə fermerlərin iqdisadi cəhətdən ucuz, sağlam və keyfiyyətli məhsul əldə etməsi üçün zəmin yaranar, xəstəliyin heyvan və insanlar arasında yayılmasının qarşısı tezliklə alınar.

***Əbülfət ALIYEV,***
***KTN yanında AXA Bakı şəhər Baytarlıq İdarəsinin aparıcı baytar həkimi***

# "Şəhərdən kəndə" layihəsi çərçivəsində təlimlərə başlanılıb

Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədarük və Təchizat" ASC tərəfindən həyata keçirilən "Şəhərdən kəndə" layihəsi çərçivəsində ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) dəstəyi ilə layihəyə qoşulmaq üçün müraciət edən və müxtəlif regionlarda fəaliyyət göstərən fermerlərə maarifləndirmə təlimlərinin keçirilməsinə başlanılıb.



Maarifləndirmə təlimlərinin təşkilində əsas məqsəd yerli fermerləri aqroturizmin əsas prinsipləri və beynəlxalq təcrübələri ilə tanış etmək, onları təsərrüfatlarında qonaq olan turistlərin qarşılanması, qidalanmanın təşkili, məhsulların qablaşdırılmasının və sərgilənməsinin təşkili, təsərrüfatlarındakı məhsulların satışından gəlir əldə edilməsi yolları, bütövlükdə aqroturizm xidmətlərinin göstərilməsi mövzularında məlumatlandırmaqdır.

İlk təlim "Şəhərdən kəndə" layihəsinə Lənkəran və Astaradan qoşulan fermerlər üçün keçirilib. Adıçəkilən ASC-nin mütəxəssisləri təlimdə iştirak edən fermerlərə layihənin məqsədi, fermerlər üçün üstünlüklərindən danışıb və qurum olaraq layihəyə qoşulmuş fermerlərə davamlı konsultasiya xidmətlərinin göstəriləcəyini deyiblər.

Bir çox mövzularda keçirilən təlimlərdə Türkiyədən dəvət edilmiş mütəxəssislər Soner Şahan və İşıl Şahan iştirak edirlər. İşıl Şahan özəl sektorda marketinq kommunikasiyaları və insan resursları üzrə çoxillik təcrübəyə malikdir. O, eyni zamanda turizm sahəsində fəaliyyət göstərən şəxslərə təlimlər keçib, müxtəlif qurumların marketinq strategiyalarının qurulmasında iştirak edib. Təlimçi, həmçinin Boğaziçi Universitetində korporativ sosial məsuliyyət layihələrinin direktoru kimi çalışıb. Soner Şahan isə hazırda Boğaziçi Universitetində strateji layihələr üzrə məsləhətçi kimi fəaliyyət göstərir. O, müxtəlif sahələrdə həyata keçirilən layihələrin planlanması və idarə edilməsi üzrə mütəxəssisdir. Təlimlərdən sonra Türkiyəli mütəxəssislər layihəyə qoşulmuş fermer təsərrüfatlarına səfər edib, yaradılan şəraitlə tanış olublar.

Xatırladaq ki, "Şəhərdən kəndə" layihəsi "Aqrar Tədarük və Təchizat" ASC tərəfindən regionlarda yaşayan əhalinin məşğulluğunun artırılması, yerli fermer təsərrüfatları üçün alternativ satış kanalı və əlavə gəlir mənbəyi, eləcə də şəhər sakinləri və xarici turistlər üçün fərqli turizm imkanı yaratmaq məqsədilə həyata keçirilir. Hazırda layihə çərçivəsində əməkdaşlıq edilən turizm şirkətləri ilə birgə ölkəmizin 7 fərqli istiqaməti üzrə müxtəlif regionlarında yerləşən 11 fermer təsərrüfatına mütəmadi turlar təşkil olunur. Layihə çərçivəsində bugünədək 40-dan artıq aqrotur baş tutub. Bu turlara ümumilikdə 800-dən çox turist qoşulub, onların 150-ə yaxını əcnəbi turistlər olub.

# Peyvəndləmə tədbirləri davam edir

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi (AXA) tərəfindən ölkə ərazisində mövcud olan epizootik sabitliyin təmin edilməsi və zoonoz xəstəliklərin qarşısının alınması istiqamətində epizootik tədbirlər davam etdirilir.

Növbəti belə tədbirin keçirildiyi Şəmkirdə rayon ərazisindəki qaramal və davar heyvanlar, eləcə də quşlar arasında profilaktik peyvəndləmə tədbirləri və diaqnostik müayinələr aparılır. AXA bildirir ki, Şəmkir Baytarlıq İdarəsi 16 sahə məntəqə vasitəsilə heyvanlar arasında qarayara, quşlarda təsadüf edilən nyukasl xəstəlikləri əleyhinə peyvəndləmə tədbirlərini həyata keçirir. Tədbirlər yekunlaşdıqdan sonra ərazidə profilaktik dezinfeksiya işləri görülür. Heyvanlarda bu tədbirlərin fevralın sonları, martın birinci ongünlüyünə kimi yekunlaşdırılması nəzərdə tutulur.

Məlumatda o da bildirilir ki, profilaktik tədbirlər çərçivəsində həm də vətəndaşlara maarifləndirici məlumatlar verilir, bukletlər paylanılır, peyvəndləmə aparılan heyvanların ətindən 14 gün ərzində istifadə olunmaması ilə bağlı xəbərdarlıq edilir.

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

Fevralın 17-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.

2019-cu ildə rayonda 10 min 250 hektardan 30,7 min ton pambıq toplanmış, məhsuldarlıq 29,9 sentnerə çatmışdır. Halbuki pambıqçılığın sürətlə inkişaf etdiyi 1981-ci ildə bu rəqəm 29,7 sentner olmuşdu. Başqa faktlar: rayon üzrə 2019-cu ildə məhsul istehsalı 2003-cü ilə nisbətən 4,4, sənaye 9,5, kənd təsərrüfatı 2,3, əsaslı kapitala yönəldilən vəsaitin həcmi 7,5, habelə tikinti-quraşdırma işləri 6,9 dəfə artmışdır. 2003-2019-cu illər ərzində 27,1 mini daimi olmaqla 32,6 min yeni iş yeri açılmış, 793 sahibkara 34 milyon manat güzəştli kredit verilmiş, 2007-2019-cu illərdə fermerlərə 36,1 milyon manat yardım edilmişdir. Pambıqçılıq sahəsində qazanılan yüksək nəticələrə görə Şakir Soltanov birinci, Fazil Musayev ikinci dərəcəli "Əmək" ordeni, Lətif Cəfərov "Tərəqqi" medalı ilə təltif olunmuşlar.











Ötən illər ərzində aparılan tikinti-quruculuq, abadlıq işləri Biləsuvarın simasını da tanınmaz dərəcədə dəyişmişdir. Zövqlə tikilən ictimai binalar, yaşayş evləri, salınan parklar, xiyabanlar, çəkilən yollar, asfaltlaşdırılan küçələr, quraşdırılan işıqlandırma sistemləri onun hüsnünə gözəlliklər qatmışdır. Biləsuvar şəhərində indi hər bir fərdi evdə, yaşayış mənzilində Hacıqabul rayonunun Talış kəndindən çəkilən duruldulmuş içməli su axır. Qazlaşma tam başa çatdırılıb. İşıq sarıdan da heç bir problem yoxdur. İndi Biləsuvarda hətta çöl yerlərindəki fermalar, qoyun yataqları da davamlı və keyfiyyətli elektrik enerjisi ilə təchiz edilir.



Yol infrastrukturunun yenidən qurulması sahəsində rayonda görülən işlər də təqdirəlayiqdir. Demək olar ki, bütün yaşayış məntəqələrinə gedən yollar asfaltlaşdırılmışdır. Prezidentin 18 sentyabr 2018-ci il tarixli sərəncamına əsasən, Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədinədək gedən yolun Biləsuvar rayonundan keçən hissəsi yenidən qurulmuşdur. Ölkə rəhbərinin 28 iyun 2019-cu il tarixli digər sərəncamına əsasən, 56 kilometrlik Biləsuvar-Bəhrəmtəpə yolu əsaslı təmir edildi. Çox çəkməyəcək rayonun Bağbanlar, Aranlı, Zəhmətabad kəndləri əhalisinin gediş-gəlişi asanlaşacaq.

Bundan əlavə, keçən il Biləsuvar şəhərində 1176 şagirdlik tam orta məktəbin tikintisi başa çatdırılaraq istifadəyə verilmiş, Muğan kəndində inşa edilən modul tipli məktəb öz qarılarını şagird və müəllimlərin üzünə açmışdır.

Kənd təsərrüfatını susuz təsəvvür etmək çətindir. Sahələrin relyefindən asılı olaraq burada əkin sahələrinə 2, bəzən 3 pilləli sistemlə su çıxarmaq olur. Yəni su bir kanaldan digərinə vurularaq əkinlərə verilir. Bu sahədə də biləsuvarlı melioratorların çoxillik təcrübəsi var. Onlar fermerlərin, torpaq mülkiyyətçilərinin yanındadırlar. Buna görə də kənd təsərrüfatında qazanılan nailiyyətlərdə rayon Suvarma sistemləri idarəsi kollektivinin xüsusi payı var.

Atalar deyib ki, payızdan bir ay qalmış qış, qışdan bir ay qalmış yazdır. Bir azdan ilk çərşənbə yurdumuza qədəm qoyacaq. Kənd adamları da artıq yaz tarla işlərinə başlamağa hazırlaşırlar. Səpin aqreqatları, malalar start xəttindədir. Kifayət qədər toxum tədarük edilmişdir. Mineral gübrə sarıdan heç bir çətinlik yoxdur.

Bunlar Biləsuvarda görülən işlərin yalnız kiçik bir hissəsidir. Həyat bir yerdə durmadığı kimi, burada da tikinti, quruculuq, abadlıq, habelə təsərrüfat işləri davam edir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Qaradağlı faciəsinin 28-ci ildönümü qeyd edilib

Ermənistan silahlı qüvvələri tərəfindən Xocavənd rayonunun Qaradağlı kəndinin işğal edilməsindən və dinc sakinlərə qarşı həyata keçirilən soyqırımı cinayətindən 28 il keçir.

AZƏRTAC xəbər verir ki, Beyləqan rayonu ərazisində məskunlaşan xocavəndli məcburi köçkünlər Qaradağlı faciəsinin ildönümü münasibətilə "Yeni Qaradağlı" qəsəbəsində şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksini ziyarət ediblər. Qaradağlı kəndinin sakinləri, rayon ictimaiyyətinin nümayəndələri, şəhidlərin ailə üzvləri, keçmiş döyüşçülər, N saylı hərbi hissənin zabit və əsgərləri abidə kompleksi önünə gül-çiçək dəstələri düzüb, şəhidlərin ruhuna ehtiramlarını bildiriblər.



Tədbirdə Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev və Qaradağlı kənd sakinləri çıxış edərək, 1980-ci illərin sonu - 1990-cı illərin əvvəllərində baş verən hadisələrdən, Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasətindən, erməni hərbi birləşmələrinin 28 il əvvəl Qaradağlı kəndində törətdikləri vəhşiliklərdən, kənd özünümüdafiə dəstəsinin düşmənə qarşı qəhrəmanlıqla mübarizə aparmasından danışıblar.

Bildirilib ki, Qaradağlı sakinləri ermənilərə qarşı inadlı müqavimət göstərib, doğma torpağın hər qarışı uğrunda qanlar tökülüb, şəhidlər verilib. Qeyri-bərabər döyüşlərdə kəndin uşaqlı-qadınlı, cavanlı-qocalı bütün sakinləri qəhrəmanlıqla iştirak ediblər.

1992-ci il fevralın 14-də erməni quldurları Xankəndində yerləşən sovet ordusunun 366-cı alayının texnikasından və canlı qüvvəsindən istifadə etməklə qədim Azərbaycan kəndi olan Qaradağlıya hücum ediblər. Kənddə olan 104 sakin və 14 əsgər sonuncu gülləyə qədər dörd gün düşmənlə mübarizə aparıb. Fevralın 17-də silah-sursatı tükənən soydaşlarımız sonda ermənilər tərəfindən əsir götürülüb, kənd işğal edilib. Əsir götürülən kənd sakinlərinə işgəncələr verilib, onlardan 68 nəfəri öldürülüb, 50 nəfəri böyük çətinliklərlə əsirlikdən azad edilib. Azad olunanların 5 nəfəri qadın olmaqla, 18 nəfər aldıqları sağalmaz yaralardan sonralar vəfat edib.

Qaradağlı kəndində 91 nəfər - kənd sakinlərinin hər 10 nəfərindən biri qətlə yetirilib. Öldürülənlərdən 21 nəfəri ahıl və qoca, 10 nəfəri qadın, 8 nəfəri məktəbli olub. 146 uşaq yetim qalıb. İşğal nəticəsində kənddə 200 yaşayış evi, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb, 25 çarpayılıq xəstəxana binası və digər sosial obyektlər dağıdılıb. Kəndin 800 nəfərə yaxın sakini məcburi köçkün düşüb.

Çıxışlarda Azərbaycanda yüksək maddi-texniki bazaya malik, müasir silahlarla təchiz edilmiş, yüksək nizam-intizamlı, işğal altında olan torpaqları azad etməyə qadir ordunun formalaşdığı bildirilib. İşğal altında olan torpaqlarımızın Azərbaycan Ordusunun qüdrəti, Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində azad olunacağına əminlik ifadə edilib.

# Tələbələr dünyəvi biliklərə yiyələnirlər

**Azərbaycan İlahiyyat İnstitutunda (Aİİ) Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) nümayəndələri ilə görüş keçirilib.**



Görüş zamanı AİÍ-nin rektoru Ceyhun Məmmədov ali təhsil müəssisəsinin fəaliyyəti haqqında məlumat verib. Tələbələrin şəxsi keyfiyyətlərinin, dil biliklərinin yüksək olmasına, dini və dünyəvi biliklərə dərindən yiyələnmələrinə xüsusi önəm verildiyini qeyd edən rektor bildirib ki, onların bilikli, savadlı, zəngin dünyagörüşlü yetişmələri üçün müxtəlif layihələr həyata keçirilir. C.Məmmədov qeyd edib ki, belə layihələrdən biri də ali təhsil müəssisəsində əlavə ərəb və ingilis dillərindən kursların təşkil olunmasıdır. C.Məmmədov institutda, eyni zamanda, BMqT tərəfindən ingilis dili kurslarının təşkil edilməsinin tələbələrin dil biliklərinin gücləndirilməsinə öz töhfəsini verəcəyini bildirib.

Daha sonra təşkilat haqqında informasiya verən nümayəndələr BMqT-nin Bakı ofisi yarandıqdan sonra Azərbaycanda müxtəlif sahələrdə layihələrin uğurla icra olunmasından bəhs ediblər. Qeyd edilib ki, BMqT 2018-ci ilin sentyabr ayından etibarən ölkəmizlə sıx əməkdaşlıq şəraitində Amerika Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyə dəstəyi ilə "Dayanıqlılıq naminə ictimai fəaliyyət" layihəsini həyata keçirir.

Məlumat üçün bildiririk ki, layihənin əsas tərəfdaş qurumlarından biri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsidir (DQİDK). Adıçəkilən layihə çərçivəsində Azərbaycan İlahiyyat İnstitutu ilə də əməkdaşlıq əlaqələri qurulub. Təşkilat institutda tələbələrin həm akademik, həm də şəxsi inkişafına töhfə vermək məqsədilə ingilis dili üzrə əlavə kursların təşkilini planlaşdırır.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# Sian və Mienyan sakinləri yardımlara görə Azərbaycana minnətdarlıq edirlər

Çində yayılan yeni tip koronavirus epidemiyası ilə əlaqədar Sumqayıtdan Çinin Mienyan və Sian şəhərlərinə göndərilən yardımlar artıq ünvana çatıb.

AZƏRTAC xəbər verir ki, yüklərin təhvilalınma mərasimində çıxış edən Mienyan şəhər xalq hökumətinin sədr müavini xanım Cian Liyin Çində koronavirusa yoluxanların sayının çoxalması ilə bağlı ölkədə tibbi ləvazimatlara olan tələbatın artdığını söyləyib. Bu çətin günlərdə Azərbaycandan göndərilən yardım epidemiya ilə mübarizəyə və qabaqlayıcı tədbirlərə dəstək olmaqla yanaşı, həm də Çin xalqına mənəvi dəstək olub. Azərbaycan çətin günlərdə Çinin kədərini bölüşdü və epidemiya ilə mübarizədə Çinin yanında olduğunu nümayiş etdirdi.

Mienyan hökuməti və sakinləri adından azərbaycanlı dostlara dərin təşəkkürünü və hörmətini ifadə edən Cian Liyin bildirib ki, Sumqayıtdan və dünyanın digər dost şəhərlərindən göndərilən yardımlar hesabına və Mienyan sakinlərinin səyi ilə epidemiyaya qalib gəlmək mümkün olacaq.

Qeyd edək ki, Sumqayıt Şəhər İcra Hakimiyyəti dostluq və əməkdaşlıq əlaqələri olan Siçuan vilayətinin Mienyan şəhərinə epidemiya ilə mübarizə və qabaqlayıcı tədbirlərdə istifadə olunmaq üçün tibbi ləvazimatlar göndərib. Bura 100 min bone (papaq), 40 min tibbi maska, 100 min steril əlcək, 100 min millilitr spirt, 100 min baxıl, 5 kiloqram xloramin (toz), 1850 tablet xloramin daxildir.

Bununla kifayətlənməyən sumqayıtlılar növbəti mərhələdə Çinin Sian şəhərinə 40 min ədəd tibbi maska, 50 min ədəd steril əlcək, 50 min ədəd 100 millilitrlik qabda spirtdən ibarət yardım göndəriblər.

# Hərbi alpinistlərimiz "Xocalıya ədalət!" ekspedisiyasında iştirak edirlər

**Xocalı faciəsinin 28-ci ildönümü ilə əlaqədar keçirilən "Xocalıya ədalət!" kampaniyası çərçivəsində Türkiyə ərazisində Ağrı dağına ekspedisiya təşkil olunub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ekspedisiyada Hərbi Hava Qüvvələrinin zabitləri polkovnik-leytenant Zal Nəbiyev, baş leytenant Ülvi Məmmədli, eləcə də Azərbaycan Alpinizm Federasiyasının təcrübəli alpinistləri Rüfət Qocayev və Nemət Ağayev iştirak edirlər.




Hərbi alpinistlərimiz Ağrı dağının 5157 metrlik zirvəsinə qalxaraq Azərbaycan və Türkiyə bayraqlarını dalğalandıracaq, Xocalı faciəsi zamanı qətlə yetirilən insanların fotolarını zirvəyə yerləşdirəcəklər. Səfərdən əvvəl iştirakçılar Xocalı soyqırımına həsr olunan "Ana harayı" abidəsinin önünə gül dəstələri qoyaraq, faciə qurbanlarının xatirələrinə ehtiramlarını bildirəcəklər. Ekspedisiya martın 1-dək davam edəcək.

# Atəşkəs rejimi 23 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# İranın xəbər portalında Xocalı soyqırımı ilə bağlı məqalə dərc olunub

İranın "iscanews.ir" xəbər portalında Xocalı soyqırımı ilə bağlı məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, yazıda erməni vəhşiliyi və onların törətdiyi cinayət əks olunub. Qeyd olunub ki, 1992-ci ilin fevralın 26-da erməni silahlıları Xocalıya hücum edərək dinc əhaliyə qarşı amansız soyqırımı törədiblər. Ən dəhşətlisi isə ondan ibarətdir ki, qətlə yetirilənlərin çoxu uşaqlar, qocalar və qadınlar olub.

Diqqətə çatdırılıb ki, bu gün Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyası Xocalı soyqırımı haqqında həqiqətlərin dünyada təbliğ olunmasında, bu faciənin Azərbaycan xalqına qarşı soyqırımı aktı kimi tanınmasında mühüm rol oynayır. Bunun nəticəsi olaraq dünyanın bir sıra ölkələrində Xocalı soyqırımı ilə bağlı müvafiq tarixi qərarlar qəbul edilir.



Bütün dünyada ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı siyasəti pislənilir. Artıq Pakistan, Meksika, Kolumbiya, Peru, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, Sudan, İordaniya, Honduras, Qvatemala, Panama, Sloveniya, Cibuti və Paraqvay parlamentləri də Xocalı soyqırımını beynəlxalq hüquq normaları müstəvisində tanımışlar. Habelə ABŞ-ın artıq 21 ştatı - Massaçusets, Texas, Nyu-Cersi, Meyn, Nyu-Meksika, Arkanzas, Corciya, Oklahoma, Tennesi, Pensilvaniya, Konnektikut, Florida, Missisipi, Vest Virciniya, İndiana, Yuta, Nebraska, Havay, Montana, Arizona və Aydaho ştatlarının qanunverici orqanlarında Xocalı soyqırımını pisləyən müvafiq qətnamələr qəbul olunub.

# Hərbi Dəniz Qüvvələrində intellektual bilik yarışı keçirilib





Cari il üzrə fəaliyyət planına uyğun olaraq, Hərbi Dəniz Qüvvələrində Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin, Qaradağ Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə şəxsi heyətin intellektual bacarığının artırılması məqsədilə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun anadan olmasının 110 illiyinə həsr edilən "Xəmsə" intellektual bilik yarışı keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu mövzuda keçirilən bilik yarışları şəxsi heyətin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasına müsbət təsir göstərdiyindən belə tədbirlərin keçirilməsinə böyük diqqət ayrılır. İntellektual bilik yarışmasının sualları əsasən qəhrəmanın həyat və fəaliyyətini əhatə edib.

İştirakçıların yüksək intellektual bilik nümayiş etdirdiyi yarışın sonunda qaliblərə diplom və qiymətli hədiyyələr təqdim olunub.


## Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) aşağıdakı LOT-lar üzrə açıq tender üsulu ilə elektron satınalma (eTender) keçirir

1. Mətbəə işlərinin satın alınması;
2. Çəngəlli yükqaldırıcı avadanlığa texniki xidmətin (sərfiyyat materialları daxil olmaqla) satın alınması.

İddiaçılara təklif edilir ki, **https://www.etender.gov.az** dövlət satınalmalarının vahid internet portalına (Portal) asan və ya elektron imzaları vasitəsilə daxil olsunlar və eTender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. eTenderdə iştirak etmək istəyən iddiaçılar hər bir LOT üzrə 100 AZN məbləğində müəyyən edilən iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tələb olunan sənədləri və tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Tələb olunan sənədlərin siyahısı Portalda göstərilmişdir.

**Azərbaycan Respublikasının Dövlət Neft Fondu**
**Ünvan:** **AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165**
**VÖEN:** **9900041961**
**H/h:** **AZ84NABZ01360400000000001944**
**Bank:** **Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod:** **501004**
**VÖEN:** **9900071001**
**M/h:** **AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T BIK: NABZAZ 2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tələb olunan sənədləri (tender təklifi və təklifin təminatı istisna olmaqla) 10 mart 2020-ci il saat 10:00-dək, tender təkliflərini (təklifin təminatı ilə birlikdə) 18 mart 2020-ci il saat 18:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. Təkliflər 19 mart 2020-ci il saat 10:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

eTenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## "Azərpoçt" MMC tabeli poçt müəssisələrinin mal-materiallarla təmin edilməsi üzrə *tender elan edir*

LOT 1: Printer avadanlıqları
LOT 2: Kompüter avadanlıqları

Tender iştirakçılarına təklif edilir ki, **http://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplsunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi:

**LOT1: 150 AZN**
**LOT2: 200 AZN**
**məbləğində pul vəsaitini aşağıdakı Bank hesabına köçürməlidir:**
**"Azərpoçt" MMC**
**VÖEN:** **9900037711**
**Bankın adı:** **"Azərpoçt" MMC**
**Kodu:** **690001**
**VÖEN:** **9900037711**
**Müxbir hesab:** **AZ76NABZ01350100000000094944**
**Hesab №-si:** **AZ82AZPO99995381000420000125**
**S.W.I.F.T.BIK:** **AZPOAZ22**

**İştirak haqqı hər LOT üzrə ayrı-ayrılıqda ödənməlidir.**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər, təqdim olunacaq malların mənşə və uyğunluq sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi. Təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **10 mart 2020-ci il saat 15:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **18 mart 2020-ci il saat 15:00-dək** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təklfilər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri **19 mart 2020-ci il saat 15:00-da** açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar: Oktay İsmayılov - Tender Komissiyasının üzvü, (tel: +99412-493-56-00, faks: +99412-493-00-37).

***Tender komissiyası***

## Azərbaycan Respublikası Təhsil Nazirliyi

### *açıq tender elan edir*

Azərbaycan Respublikası Təhsil Nazirliyi potensial malgöndərənləri (podratçıları) təhsil müəssisələri üçün poliqrafik məhsulların istehsalı üzrə dövlət satınalmalarının vahid internet Portalı (**www.etender.gov.az**) vasitəsilə keçirilən aşağıdakı LOT-lar üzrə açıq tenderdə iştirak etməyə dəvət edir.

**I LOT - 2020-2021-ci tədris ilinə məktəbə hazırlıq proqramı üzrə dərsliklərin (2 adda 138600 nüsxə) istehsalı ilə bağlı poliqrafiya işləri**

**II LOT - 2020-2021-ci tədris ilinə ümumi təhsilin humanitar fənləri üzrə dərsliklərin (87 adda 1762619 nüsxə) istehsalı ilə bağlı poliqrafiya işləri**

**III LOT - 2020-2021-ci tədris ilinə ümumi təhsilin texniki fənləri üzrə dərsliklərin (65 adda 2092604 nüsxə) istehsalı ilə bağlı poliqrafiya işləri**

**IV LOT - 2020-2021-ci tədris ilinə ümumi təhsilin ictimai fənləri üzrə dərsliklərin (76 adda 2286130 nüsxə) istehsalı ilə bağlı poliqrafiya işləri**

**V LOT - 2020-2021-ci tədris ilinə ümumi təhsilin təbiət fənləri üzrə dərsliklərin (30 adda 632221 nüsxə) istehsalı ilə bağlı poliqrafiya işləri**

**VI LOT - 2020-2021-ci tədris ilinə peşə ixtisasları üzrə dərsliklərin (96 adda 185699 nüxsə) istehsalı ilə bağlı poliqrafiya işləri**

**VII LOT - 2020-2021-ci tədris ilinə nəşr olunan dərsliklərin komplektinə daxil olan müəllim üçün metodik vəsaitlərin (79 adda 321040 nüsxə) istehsalı ilə bağlı poliqrafiya işləri**

**VIII LOT - Dövlət nümunəli təhsil sənədləri blanklarının və məktəb sənədlərinin (59 adda 772940 nüsxə) istehsalı ilə bağlı poliqrafiya işləri**

VI və VIII LOT-lar istisna olmaqla bütün digər LOT-lar üzrə poliqrafiya işləri Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 164.1.8-ci maddəsinə əsasən ƏDV-dən azaddır.

Dövlət satınalmalarını tənzimləyən normativ hüquqi sənədlərdə göstərilən hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident hüquqi və ya fiziki şəxslər, yaxud hüquqi şəxslər birliyi dövlət mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan Respublikasında keçirilən dövlət satınalma prosedurlarında iddiaçı kimi iştirak edə bilərlər. Satınalan təşkilatdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olan İddiaçıların həmin təşkilat tərəfindən keçirilən satınalma prosedurlarında iştirakına yol verilmir.

Tenderdə iddiaçı kimi iştirak etmək istəyən malgöndərən (podratçı) **18 mart 2020-ci il saat 17:00-dək** vahid internet Portalı vasitəsilə aşağıdakı sənədləri təqdim edir:

1. Tenderdə iştirak etmək üçün ərizə (LOT-un adı göstərilməklə) və hər bir LOT üzrə 500 (beş yüz) manat məbləğində heç bir halda geri qaytarılmayan iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi. İştirak haqqı aşağıdakı hesaba köçürülməlidir:

**Bakı şəhəri, AZ1008, Xətai prospekti, 49, Azərbaycan Respublikası Təhsil Nazirliyi,**
**VÖEN: 1500046011,**
**DXA,**
**VÖEN: 1401555071,**
**Kod: 210005,**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944,**
**S.W.I.F.T. - CTREAZ22,**
**Hesab №: AZ30CTRE00000000000002168501**
**Fond 7**
**Büdcə gəlirlərinin təsnifatı 142330 sair daxil olmalar.**

2. Malgöndərənin (podratçının) tam adı və rekvizitləri, qeydiyyatdan keçdiyi ölkə və hüquqi statusunu təsdiq edən sənədlər.

3. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış.

4. Malgöndərənin (podratçının) ixtisas uyğunluğu göstəriciləri ilə bağlı aşağıdakı sənədləri:

- **I** LOT üzrə tenderdə malgöndərənin (podratçının) hər hansı bir təqvim ilində dərsliklərin sifariş əsasında istehsalı sahəsində azı **500000 (beş yüz min)** manat məbləğində icra edilmiş müqavilələrinin, o cümlədən Azərbaycan Respublikasında azı **50000 (əlli min)** manat məbləğində icra edilmiş müqavilələrinin əsllərinin surətləri.

- **II** LOT üzrə tenderdə malgöndərənin (podratçının) hər hansı bir təqvim ilində dərsliklərin sifariş əsasında istehsalı sahəsində azı **2000000 (iki milyon)** manat məbləğində icra edilmiş müqavilələrinin, o cümlədən Azərbaycan Respublikasında azı **200000 (iki yüz min)** manat məbləğində icra edilmiş müqavilələrinin əsllərinin surətləri.

- **III** LOT üzrə tenderdə malgöndərənin (podratçının) hər hansı bir təqvim ilində dərsliklərin sifariş əsasında istehsalı sahəsində azı **2000000 (iki milyon)** manat məbləğində icra edilmiş müqavilələrinin, o cümlədən Azərbaycan Respublikasında azı **200000 (iki yüz min)** manat məbləğində icra edilmiş müqavilələrinin əsllərinin surətləri.

- **IV** LOT üzrə tenderdə malgöndərənin (podratçının) hər hansı bir təqvim ilində dərsliklərin sifariş əsasında istehsalı sahəsində azı **2000000 (iki milyon)** manat məbləğində icra edilmiş müqavilələrinin, o cümlədən Azərbaycan Respublikasında azı **200000 (iki yüz min)** manat məbləğində icra edilmiş müqavilələrinin əsllərinin surətləri.

- **V** LOT üzrə tenderdə malgöndərənin (podratçının) hər hansı bir təqvim ilində dərsliklərin sifariş əsasında istehsalı sahəsində azı **500000 (beş yüz min)** manat məbləğində icra edilmiş müqavilələrin, o cümlədən Azərbaycan Respublikasında azı **50000 (əlli min)** manat məbləğində icra edilmiş müqavilələrinin əsllərinin surətləri.

- **VI** LOT üzrə tenderdə malgöndərənin (podratçının) hər hansı bir təqvim ilində dərsliklərin sifariş əsasında istehsalı sahəsində azı **500000 (beş yüz min)** manat məbləğində icra edilmiş müqavilələrinin, o cümlədən Azərbaycan Respublikasında azı **50000 (əlli min)** manat məbləğində icra edilmiş müqavilələrinin əsllərinin surətləri.

- **VII** LOT üzrə tenderdə malgöndərənin (podratçının) hər hansı bir təqvim ilində dərsliklərin sifariş əsasında istehsalı sahəsində azı **500000 (beş yüz min)** manat məbləğində icra edilmiş müqavilələrinin, o cümlədən Azərbaycan Respublikasında azı **50000 (əlli min)** manat məbləğində icra edilmiş müqavilələrinin əsllərinin surətləri.

- **VIII** LOT üzrə tenderdə malgöndərənin (podratçının) hər hansı bir təqvim ilində dövlət nümunəli sənəd blanklarının və ya məktəb sənədlərinin sifariş əsasında istehsalı sahəsində azı **500000 (beş yüz min)** manat məbləğində icra edilmiş müqavilələrinin, o cümlədən Azərbaycan Respublikasında azı **50000 (əlli min)** manat məbləğində icra edilmiş müqavilələrinin əsllərinin surətləri.

**5.** Tender iştirakçısının satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmasının təsdiqi kimi kiçik, orta yaxud hüquqi şəxslər birliyinin daxilində mikro sahibkarlıq subyekti olması haqqında müvafiq səlahiyyətli orqan tərəfindən verilmiş arayış.

**6.** Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış.

**7.** Tender iştirakçısının öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə məlumat.

**8.** Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat.

**9.** Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat.

İddiaçı iştirak etdiyi hər bir LOT üzrə tender təklifini və təklifin dəyərinin 1 (bir) faizi həcmində olan bank təminatını "Dövlət satınalmaları haqqında" qanunun və əsas şərtlər toplusunun tələblərinə uyğun hazırlayaraq **02 aprel 2020-ci il saat 17:00-dək** vahid internet Portalı vasitəsilə təqdim etməlidir. Tender təklifi açıldığı gündən sonra 90 (doxsan) bank günü qüvvədə qalmalıdır. Tender təklifinin təminatı təklifin qüvvədə olma müddətindən 30 (otuz) bank günü çox olmalıdır. İddiaçılar hər bir LOT üzrə yalnız bir təklif verə bilər. İddiaçıların tender təklifi, həmçinin tenderlə əlaqədar bütün yazışmalar və sənədlər Azərbaycan dilində tərtib edilməlidir.

Tender təklifləri **03 aprel 2020-ci il saat 17:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə vahid internet Portalı vasitəsilə tanış ola bilərlər. Hər bir tender üzrə azı üç təklif təqdim olunduqda tender baş tutmuş hesab edilir. Üçdən az təklif daxil olan tender baş tutmamış elan edilir, həmin tenderin davamından imtina edilir.

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçirilir. Tenderdə iştirak, tender təkliflərinin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada vahid internet Portalı vasitəsilə aparılır. Tenderin prosedur qaydaları, təkliflərin təqdim edilməsi və təkliflərin qiymətləndirilməsi və müqayisəsi əsas şərtlər toplusunda öz əksini tapır. İddiaçı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu, əsas şərtlər toplusunun məzmunu, o cümlədən iştirakçılar üçün təlimatlar, tender sənədlərinin formaları, müqavilə şərtləri, texniki şərtlər və s. ilə tanış olmalıdır. İddiaçının bu sənədlər və tender təklifi haqqında tam təsəvvürü, məlumatı olmaması və əsas şərtlər toplusunun tələblərinə uyğun gəlməyən təklif verməsi onun tender təklifinin kənarlaşdırılması ilə nəticələnə bilər.Tender təkliflərini qiymətləndirərkən və müqayisə edərkən tenderin əsas şərtlər toplusunda müəyyənləşdirilən keyfiyyət tələblərinə cavab verən yerli mallar (işlər və xidmətlər) üzrə tender təkliflərinin xeyrinə xaricdən idxal olunan eyni malların (işlər və xidmətlərin) təklif edilən qiymətinin 20 faizi həcmində güzəştli düzəliş tətbiq edilir.

İstehsal edilmiş məhsullar son təyinat məntəqələrinə aşağıdakı qrafik əsasında təhvil verilməlidir:

| Təhvil veriləcək məhsulların adı | Son təyinat məntəqələri | Son təhvil verilmə tarixləri |
|---|---|---|
| Dövlət nümunəli təhsil sənədləri | Bakı şəhəri, Xətai prospekti, 49-da yerləşən Azərbaycan Respublikası Təhsil Nazirliyi | 31 may 2020-ci il tarixinədək |
| Dərsliklər, müəllim üçün metodik vəsaitlər və məktəb sənədləri | Təhsil Nazirliyinin Əsaslı Tikinti və Təchizat İdarəsinin Salyan şosesi, 14 ünvanında yerləşən anbarı | 25 avqust 2020-ci il tarixinədək |

Əlavə məlumat üçün tender üzrə əlaqələndirici Aynurə Novruz qızı Həsənovaya müraciət etmək olar. Əlaqə məlumatları:
Ünvan: Bakı şəhəri, Xətai prospekti, 49
Telefon: 599-11-55 (daxili 5126)
e-mail: aynura.hasanova@edu.gov.az

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Qax Suvarma Sistemləri İdarəsi tərəfindən əsaslı və cari təmir üçün tikinti materiallarının, mexanizm və nəqliyyat vasitələrinin təmiri üçün ehtiyat hissələrinin satın alınması məqsədilə 26.01.2020-ci il tarixdə etender.gov.az rəsmi internet saytında və 28 yanvar "Azərbaycan" qəzetində verilmiş elanda sənədlərin qəbulu 26.02.2020-ci il, təklif və təminatın qəbulu 05.03.2020-ci il və tender zərflərinin açılışı isə 06.03.2020-ci il tarixlərinə dəyişdirilmişdir.

***Tender komissiyası***

## "Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası" Publik Hüquqi Şəxsi 2020-ci il üçün

### *kotirovka sorğusu elan edir*

1. Katriclərin dolumu və təmiri, barabanların dəyişdirilməsi;
2. Oksigen balonlarının doldurulması;
3. Kompüter tomoqrafiyası avadanlığının ilkin texniki baxışı və mövcud nasazlığın təmiri.

Kotirovka sorğusu üzrə müraciətlər 24.02.2020-ci il saat 13:00-dək qəbul edilir.

**Ünvan: Mingəçevir şəhəri, 20 Yanvar küçəsi, 12**
**Telefon: +99455 500-45-99; +99455 204-15-20**

***Tender komissiyası***

AGBANK

## "AGBank" ASC-nin səhmdarlarının nəzərinə

03 aprel 2020-ci il tarixdə saat 10:00-da bankın Cəlil Məmmədquluzadə küç. 102A ünvanında yerləşən binasında səhmdarların Ümumi Yığıncağı keçiriləcək.

**Yığıncağın gündəliyi:**

**1.** İdarə Heyətinin 2019-cu il üzrə hesabatı
**2.** Audit Komitəsinin hesabatı
**3.** Bankın maliyyə nəticələrinin təsdiq edilməsi
**4.** Müşahidə Şurasının tərkibinin təsdiqi
**5.** İdarə Heyətinin tərkibinin təsdiqi.

***İdarə Heyəti***

*Təkrar*

## Azərbaycan Respublikasının Mərkəzi Bankı istismarda olan standart proqram təminatları üzrə lisenziyaların satın alınması ilə bağlı

### *tender elan edir*

Azərbaycan Respublikasının Mərkəzi Bankı standart proqram təminatları üzrə lisenziyaların satın alınması ilə bağlı tender keçirir.

Tender proseduru **19 mart 2020-ci il saat 15:00-da** Azərbaycan Respublikasının Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcəkdir.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün yazılı müraciət;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış (xarici iddiaçılar tərəfindən məlumat);*
- *iki nüsxədə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi 07 may 2020-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (əsas şərtlər toplusuna əlavə edilən formada);*
- *iddiaçının müvafiq sahə üzrə ən azı iki illik iş təcrübəsini əks etdirən məlumatlar (korporativ müştərilərin adı, ünvanı, əlaqə telefonu);*
- *iddiaçının təklif olunan malların satılmasına müvəkkil edildiyini təsdiq edən Avtorizasiya forması (Manufacturer Authorization Form);*
- *iddiaçının ixtisas uyğunluğuna dair tenderin əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər məlumatlar.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını **18 mart 2020-ci il saat 18:00-a** qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci **10 mart 2020-ci il saat 18:00-a** qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanda yerləşən inzibati binasında əlaqələndirici şəxsə təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

İddiaçılar tenderdə iştirak haqqı kimi Azərbaycan Respublikasının Mərkəzi Bankının aşağıdakı hesabına 500 (beş yüz) manat məbləğində vəsait köçürməlidir:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı,**
**hesab №: AZ25NABZ01701190000000001944**
**m/h: AZ74NABZ01451700000000001944**
**Kod: 501004**
**VÖEN: 9900071001**

**Xarici iddiaçılar iştirak haqqını ödəniş günündə Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi məzənnəsi ilə ABŞ dollarında aşağıda göstərilmiş hesaba ödəyə bilərlər:**
**Correspondent Bank: FRNYUS33, Federal Reserve Bank of New York, corr. account number: 021088221 AZER, account №: AZ25NABZ01701190000000001944.**
**Satınalmaya başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.**

Standart proqram təminatları üzrə lisenziyalar tender üzrə satınalma müqaviləsi imzalandığı gündən ən geci 45 (qırx beş) iş günü ərzində təhvil verilməlidir.

Qiymətləndirmə meyarları: qiymət və texniki amillər.

Tenderdə iştirak etmək istəyən hər bir şəxs iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş Tenderin əsas şərtlər toplusunu əldə edə bilər. Tenderin əlaqələndirici şəxsi: Elman Muradov (İnformasiya texnologiyaları departamentinin əməkdaşı). Telefon: 493-11-22 (499), faks: 493-55-41, elektron poçt ünvanı: **elman_muradov@cbar.az.**

***Tender komissiyası***

## "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi "İçərişəhər" Muzey Mərkəzi "Azərbaycan hökmdarları"- Ağqoyunlu dövlətin hökmdarlarına həsr olunmuş sərginin təşkili məqsədilə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif olunur ki, dövlət satınalmalarının https://www.etender.gov.az vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: - aşağı qiymət, yüksək keyfiyyət, təcrübə və maliyyə vəziyyəti. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər 250 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi "İçərişəhər" Muzey Mərkəzi Bakı şəhəri, Böyük Qala küçəsi, 41 (əlaqələndirici şəxs: Səbinə Bağırova, telefon: (012) 492-29-10) ünvanından ala bilərlər.

**Hesab: AZ8IIBAZ38090019446242419204**
**VÖEN: 1702532651**
**Bank ABB Mərkəzi filial**
**Kodu: 805722**
**VÖEN: 9900001881**
**M/H: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T: IBAZAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **10 mart 2020-ci il saat 11:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **18 mart 2020-ci il saat 16:00-a** qədər "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi "İçərişəhər" Muzey Mərkəzi Bakı şəhəri, Böyük Qala küçəsi, 41 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **19 mart 2020-ci il saat 11:00-da** "İçərişəhər" Muzey Mərkəzi Bakı şəhəri, Böyük Qala küçəsi, 41 ünvanında açılacaqdır.

**QEYD** - *tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## ABŞ-da yeni ballistik raket sınaqdan keçirildi



ABŞ Hərbi Dəniz Qüvvələri ölkədə nüvə başlığı daşıya bilən yeganə raketin yeni modifikasiyasını sınaqdan çıxarmışdır. Söhbət xidmət müddəti uzadılmış "Trident II (D5LE)" ballistik raketindən gedir.

Sınaq Kaliforniyadakı San-Diyeqo şəhərinin yaxınlığında keçirilmişdir. Raket "Ohayo" USS Maine (SSBN-741) tipli sualtı qayıqdan uğurla start götürmüşdür.

Məlumata görə, sınaq raketin istismar xarakteristikası gözləntilərini təsdiqləmiş və əlavə məlumat toplamağa imkan vermişdir.

# Beynəlxalq aləm

## Çində koronavirus dərmanının istehsalı başladı

Çinli əczaçılar koronavirusun törətdiyi respirator infeksiyanın əlamətlərini aradan qaldıran dərmanı tezliklə satışa buraxacaqlar. Bu barədə "Alman dalğası" radiostansiyası xəbər verir.

Məlumata görə, mütəxəssislər "Favipiravir" maddəsində COVİD-2019-a qarşı potensial aşkar etmişlər. Yeni dərmanı "Zhejiang Hisun Pharmaceutical" şirkəti hazırlamışdır. İstehsal Çjetszyan əyalətində başlayıb. Bu, ilk xüsusi antikoronavirus preparatıdır.

Qeyd edək ki, yeni tipli koronavirusa qarşı peyvənd eyni vaxtda bir neçə ölkədə hazırlanır, amma təxminən iki ildən sonra əlçatan olacaq. Bununla əlaqədar ekspertlər Yer kürəsi əhalisinin təxminən üçdə ikisini bürüyəcək qlobal epidemiya proqnozlaşdırırdılar.

Bu arada Çində koronavirus qurbanlarının sayı 1771 nəfərə çatmışdır. Xəstəliyə 70548 nəfər yoluxmuşdur. Onların 10644-nün vəziyyəti ağırdır. 10844 xəstə artıq sağalıb evə göndərilmişdir.

## Avstriya Aİ sərhədçilərini Liviyaya göndərməyi təklif edir



Avropa İttifaqına (Aİ) üzv ölkələrin sərhədçiləri Liviyaya silah embarqosuna nəzarət edə bilərlər. Bu təkliflə Avstriyanın Xarici İşlər naziri Aleksander Şallenberq çıxış etmişdir.

Diplomat Almaniyanın "Die Welt" qəzetinə müsahibəsində qeyd etmişdir ki, Liviya hökumətinin razılaşacağı təqdirdə Avstriya bu missiyaya öz töhfəsini verməyə hazırdır. Eyni zamanda Şallenberq vurğulamışdır ki, Vyana Aralıq dənizi ilə Liviyaya silah göndərilməsinə nəzarətin tətbiq olunmasına qarşı çıxır. Nazirin dediyinə görə, Liviyaya silahların əsasən yerüstü və hava yolu ilə göndərilməsi faktdır. Şallenberq əlavə etmişdir ki, Avstriya həmçinin Avropa Xarici Əlaqələr Xidmətinin Liviyanın hava məkanına müşahidəni gücləndirmək təklifini dəstəkləyir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayevə əzizi

**YUSİF NURİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şəki Apelyasiya Məhkəməsinin kollektivi məhkəmənin hakimi Rövşən Rəfiyevə anası

**RAYA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Respublika Dəri-Zöhrəvi Mərkəzinin kollektivi mərkəzin həkimi

**RAMİZ İSMAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6940
Sifariş 581
Qiyməti 40 qəpik